# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 62 (8655) ŞƏNBƏ, 20 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Milli ruhumuzu yaşadan bayram

**“İrəlidə bizi işğaldan azad olunmuş yurd yerlərimizdə nəhəng quruculuq işləri gözləyir. İnanıram ki, yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ab-havası ilə həmahəng birlik və həmrəylik nümayiş etdirəcək, böyük qayıdış planımızı sülh və əmin-amanlıq şəraitində uğurla gerçəkləşdirəcək, doğma Qarabağı qısa müddətdə dirçəldəcəyik.**

**Hamınıza bahar əhvali-ruhiyyəsi arzu edirəm. Bu bayram öz gəlişi ilə evinizə, ocağınıza bol ruzi-bərəkət və firavanlıq gətirsin!”**

**İlham ƏLİYEV**

**Novruz xalqımızın mifik düşüncə və təsəvvürlərini özündə yaşadan və bu günümüzə yetirən qədim xalq bayramıdır. Azərbaycanda milli bayram kimi hər il yüksək səviyyədə qeyd olunan Novruz xalqın müqəddəs etiqadına söykənməklə özündə mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir. Təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlər, xoş arzular oyadır, əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadır, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllərə əsaslanır. Ruhun oyanışı, yeni bir həyatın başlanğıcı olan bu gözəl el bayramı hər dəfə gəlişi ilə ömrümüzü bəzəyir.**

Builki Novruzu insanlarımız böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qarşılayırlar. Az qala 30 il sonra Qarabağda da bayram tonqalları çatılır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müzəffər ordumuzun gücü ilə işğaldan azad etdiyi əzəli-əbədi torpaqlarımızda Novruz sevinci yaşanır. Düşmənin dağıdıb viran qoyduğu, bu gün isə Azərbaycan dövlətinin bərpa və yenidən qurulmasını həyata keçirdiyi yurd yerlərimiz növbəti cəlalına hazırlaşır. Builki Novruz bayramı ötən il olduğu kimi COVID-19-la bağlı kütləvi tədbirlərlə qeyd olunmasa da, evlərdə, ailələrdə insanlar onu bir başqa büsatla, bir başqa ovqatla qeyd edirlər.

## Həmrəylik bayramı

Novruz çox əski çağlarda Şərq dünyasında həm yazın gəlişi, yeni mövsümün başlanması, əkinçilik və maldarlıq mədəniyyəti ilə bağlı, həm də xalqın mənəvi-əxlaqi dəyərlərini, humanizm və həmrəylik kimi bəşəri duyğuları qabarıq şəkildə göstərən ayin və etiqadlar sistemidir. Bu bayram milli ruhumuzun tərcümanıdır. Xalqımızın keçib gəldiyi tarixi yol, minilliklərlə formalaşmış bir çox ənənələrimiz bu bayramın ruhunda yaşayır. Onun fəlsəfəsi həyatın dörd ünsür üzərində bərqərar olması ilə bağlı qədim inanca əsaslanır. Əcdadlarımız yaradılışın əsasında od, su, hava və torpağın durduğuna əzəldən inanıb, onları müqəddəs sayıblar. Bu müqəddəsliyə tapınıblar. Belə bir inanc zaman keçdikcə daha da cilalanıb. Özünün kodlarını formalaşdırıb. Sistemli bir təsəvvürə çevrilib.

*Ardı 8-ci səh.*

# Dünya Bankı Azərbaycanın yeni uğurunu elan etdi

**Dünya Bankının hazırladığı “İqtisadi İnklüzivliyin Vəziyyəti” 2021-ci il hesabatına əsasən, Azərbaycan həyata keçirdiyi inklüzivlik proqramları ilə digər ölkələrə nümunə ola bilər.**

Hesabatda ölkəmizdə “Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsi” təhlil edilib. İlk dəfə təqdim olunan təhlildə ifrat yoxsul və həssas əhali qrupları üçün nəzərdə tutulan iqtisadi inklüzivlik proqramlarının qlobal qiymətləndirilməsi aparılıb.

Hesabat bu sahədə məlumat boşluğunu doldurmaqla yanaşı, iqtisadi inklüzivlik proqramlarının ilk dəfə sistematik icmalını təqdim edir. Eyni zamanda təhlildə ölkələrin sosial müdafiə sisteminə, yeni iş yerləri və minimum iqtisadi vasitələrlə təminata investisiyaları artırmaq yolları və maliyyə əlçatanlığı ilə ən yoxsul əhalinin özünə layiqli gələcək qurmaq imkanlarını aydınlaşdırır. 219 aktiv iqtisadi inklüzivlik proqramı həyata keçirən 75-dən çox ölkənin təcrübəsi təhlil edilən hesabatda iqtisadi inklüzivlik və məzun proqramlarının genişləndirilməsi imkanları da araşdırılır.

*Ardı 4-cü səh.*

# Qarabağda yeni dövr başlayır

## İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizi inkişaf, əməkdaşlıq və təhlükəsizlik bölgəsinə çevirir

Vətən müharibəsində böyük qələbənin qazanılması ilə Azərbaycan tarixində həm də yeni inkişaf mərhələsinin təməli qoyuldu. 30 il düşmən tapdağı altında qalaraq dünyada “boz zona” kimi tanınan, narkotacirlərin, terrorçuların yuvasına çevrilmiş ərazilərimizdə bu gün quruculuq və bərpa işlərinə start verilib. Prezident İlham Əliyev işğaldan azad olunmuş əraziləri sülh, əməkdaşlıq və təhlükəsizlik bölgəsinə çevirir.

## Qalib Sərkərdənin Qarabağ bölgəsinə 6-cı səfəri

Hazırda işğaldan azad edilmiş bütün şəhər və rayonların baş planlarının hazırlanması ilə bağlı Prezidentin tapşırığının icrası sürətlə davam etməkdədir. Hərbi əməliyyatların bitməsindən sonra İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının əyani sübutudur.

Növbəti səfər isə xalqımız üçün çox əlamətdar olan Novruz bayramı günlərinə, İlaxır çərşənbəyə təsadüf etdi. Qalib Ali Baş Komandan və xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva yenə də işğaldan azad edilmiş ərazilərimizə - Füzili, Xocavənd və Şuşaya tarixi səfər etdilər.

Bu dəfə Ali Baş Komandan Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı, yeni avtomobil yollarının təməlini qoydu. İlham Əliyev bir daha bəyan etdi ki, azad edilmiş bütün torpaqlarda dağıdılmış şəhərlər, kəndlər yenidən qurulacaq, normal həyata qayıdacaq, infrastruktur bərpa ediləcək. Bu torpaqlar malik olduqları zəngin resurslar baxımından dünyanın diqqətində olacaq, əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün yeni imkanlar yaranacaq.

*Ardı 6-cı səh.*

# Qarabağda salınan yollar bütün regionun gələcək yüksəlişinə hesablanıb

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, 30 il sürmüş münaqişə öz həllini tapdıqdan sonra regional əməkdaşlıq və inkişaf üçün yeni imkanlar açılıb. Azərbaycan əməkdaşlığa, düşmənçilik səhifəsini geridə qoymağa, regionda proqnozlaşdırıla bilən daha yaxşı vəziyyəti təmin etmək üçün qonşularımızla dürüst şəkildə işləməyə hazırdır.

İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilməsinə başlanan layihələr bu sözlərin əyani təsdiqidir. Bunların arasında yol layihələrinin öz yeri var.

İndi həmin ərazilərdə avtomobil yollarının çəkilişi də diqqət mərkəzindədir. Dövlət başçısı Füzuli və Xocavənd rayonlarına səfəri zamanı bunu bir daha vurğulamışdır. Avtomobil yolları inşasının azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıdığını bildirmişdir.

Prezident bu səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoymuşdur. Yol başlanğıcını “Zəfər yolu”ndan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol dörd hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri də inşa ediləcək.

*Ardı 4-cü səh.*



# 10 min nəfərədək şəxsi heyət, 100-dək zirehli texnika, 200-dək artilleriya qurğusu, 30-dək hərbi aviasiya

## Növbəti hərbi təlim Azərbaycan Ordusunun dünyanın ən güclüləri arasında olduğunu bir daha təsdiqlədi

**Azərbaycan Dağlıq Qarabağ münaqişəsini güc yolu ilə həll edə biləcəyini heç vaxt gizlətmirdi. Hər zaman bəyan olunurdu ki, Ermənistan öz xoşu ilə işğal etdiyi torpaqlarımızı azad etməsə, ordumuz öz sözünü deyəcək.**

Beləliklə, Azərbaycan dediyini etdi, 44 günlük Vətən müharibəsində ordumuz müqəddəs missiyasını layiqincə yerinə yetirdi. İlham Əliyevin Ali Baş Komandanlığı ilə hərbçilərimiz yeni tarix yazdılar, dövlətçiliyimizi, müstəqilliyimizi yeni qəhrəmanlıq salnaməsi ilə zənginləşdirdilər.

## Müharibəyə hazırlıq bütün istiqamətlərdə aparılırdı

Bu müharibəyə Azərbaycan çoxdan hazırlaşırdı. Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VII qurultayında qeyd etdiyi kimi, bu hazırlaşma olmalı idi. Danışıqlar dövründə respublikamıza çox böyük təzyiqlər oldu, amma İlham Əliyev ölkəmizin mənafelərini qətiyyətlə qorudu, Ermənistanın maraqları naminə münaqişənin güc yolu ilə həllinə qarşı çıxanların, hərb variantını istisna edənlərin təkliflərini yaxına buraxmadı.

Hazırlıq müxtəlif istiqamətlərdə həyata keçirilirdi. Beynəlxalq müstəvidə Ermənistanın işğalçılıq siyasətinə qarşı fəal iş aparılırdı. İkinci Qarabağ müharibəsi üçün beynəlxalq hüquqi baza daha da möhkəmləndirilirdi.

*Ardı 5-ci səh.*

# Ermənistanda dövlət idarəçiliyi sistemi çöküb

## Bu dəfə məhkəmə Paşinyana qarşı çıxdı

Ermənistanda hadisələrin inkişafı getdikcə daha xaotik xarakter almaqdadır. Bu xüsusən də silahlı qüvvələrin baş qərargahının rəisi, general-polkovnik Onik Qasparyanla bağlı məsələdə özünü daha qabarıq göstərir.

Məsələ bundadır ki, Ermənistanın inzibati məhkəməsi baş nazir Nikol Paşinyanın azad etdiyi Onik Qasparyanı baş qərargahın rəisi vəzifəsində saxlamaqla bağlı qərar çıxarıb. Qərara əsasən, Qasparyan baş qərargahın rəisi kimi səlahiyyətlərinin icrasını davam etdirəcək.

Lakin Nazirlər Kabineti Qasparyanın silahlı qüvvələrin baş qərargah rəisi vəzifəsində saxlanılmasına dair məhkəmə qərarına münasibətində bildirib ki, o, vəzifəsindən azad olunub. Bütün bunlar Ermənistanda hökumət başçısı ilə ordu arasında, eləcə də hakimiyyət daxilində yaranan ziddiyyətlərin davam etdiyini göstərir. Bu arada Paşinyan erkən parlament seçkilərinin 20 iyun tarixində keçiriləcəyini açıqlayıb.

Siyasi böhran şəraitində daha da ağırlaşan iqtisadi vəziyyət həm də Ermənistanda əhalinin yaşayış səviyyəsini sürətlə pisləşdirir.

*Ardı 10-cu səh.*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, maddə 2067; 2019, № 3, maddə 413; 2020, № 1, maddə 9) ilə təsdiq edilmiş "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.3.2. **namizəd** - investisiya layihələrinin TİT modeli çərçivəsində həyata keçirilməsinə maraq göstərərək, bu məqsədlə təşkil olunmuş müsabiqədə iştirak edən investor;".

2. 2.1-ci bəndin dördüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"İnvestisiya layihəsinə dair ətraflı texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanmasını namizədlər, layihə-smeta və ətraf mühitə təsirin qiymətləndirilməsi sənədlərinin hazırlanmasını isə qalib olan investor təmin edir.".

3. 2.3-cü bənd üzrə:

3.1. 2.3.2-ci yarımbənddə "investorun verməli olduğu" sözləri "verilməli olan" sözləri ilə əvəz edilsin;

3.2. 2.3.5-ci yarımbənddə "namizəd şirkətlərə" sözləri "namizədlərə" sözü ilə əvəz edilsin;

3.3. 2.3.6-cı yarımbənddə "namizəd şirkətin" sözləri "namizədin" sözü ilə əvəz edilsin.

4. 2.5.1-ci, 2.5.2-ci yarımbəndlərdə, 2.7-ci (hər iki halda) və 4.2-ci bəndlərdə "namizəd şirkətlər" sözləri "namizədlər" sözü ilə əvəz edilsin.

5. 2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.6. Müsabiqənin keçirilməsi zamanı namizədlərə bərabər və tam hüquqlu iştirak imkanı verilir.".

6. Aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

"2.7-1. Aşağıdakı hallarda səlahiyyətli orqanın əsaslandırılmış qərarı ilə investor müsabiqə keçirilmədən birbaşa cəlbetmə üsulu ilə müəyyən edilir:

2.7-1.1. insan tələfatına, insanların səhhətinə və ya ətraf mühitə ziyan vurulmasına, əhəmiyyətli maddi itkilərə və insanların həyat fəaliyyəti şəraitinin pozulmasına səbəb olmuş fövqəladə hadisə ilə əlaqədar olaraq hər hansı investisiya layihəsinin həyata keçirilməsinə təcili ehtiyac yaranması və bununla bağlı müsabiqənin təşkilinin və keçirilməsinin sərf ediləcək vaxt baxımından məqsədəuyğun olmaması;

2.7-1.2. investisiya layihəsinin yalnız konkret investor tərəfindən həyata keçirilməsinin mümkünlüyü və ya konkret investorun investisiya layihəsinin predmeti ilə bağlı müstəsna hüquqlara malik olması, heç bir alternativinin və ya əvəzedicisinin olmaması.".

7. 2.8-ci və 2.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.8. Bütün namizədlər və ya müəyyən namizədlər arasında keçirilən müsabiqənin baş tutmuş hesab edilməsi üçün bu üsullarla keçirilən müsabiqədə azı 2 (iki) namizəd iştirak etməlidir. Keçirilən müsabiqədə namizədlərin sayı 2-dən (ikidən) az olduqda, müsabiqə baş tutmamış hesab edilir.

2.9. Bütün namizədlər və ya müəyyən namizədlər arasında keçirilmiş müsabiqədə müsabiqə qalibinin müəyyən edilməsi mümkün olmadığı və ya müsabiqə baş tutmadığı təqdirdə, investor, bu sənədin 2.7-1-ci bəndində nəzərdə tutulmuş hallara istinad edilmədən səlahiyyətli orqanın əsaslandırılmış qərarı qəbul edilməklə, birbaşa cəlbetmə üsulu ilə müəyyənləşdirilir. Bu cür qərarda müəyyənləşdirilmiş investorun təcrübəsinin, texniki, maliyyə və digər göstəricilərinin layihənin xüsusiyyətlərinə uyğunluğu, habelə müsabiqə üzrə nəzərdə tutulmuş şərt və tələblərə edilən hər bir dəyişikliyin zəruriliyi əsaslandırılmalıdır.".

8. 2.10-cu bənddə "namizəd şirkətlə" sözləri "investorla" sözü ilə əvəz edilsin.

9. 2.11-ci bəndin birinci cümləsində "Müsabiqənin qalibi" sözləri "İnvestor" sözü ilə əvəz edilsin və həmin cümlədən "investor" sözü çıxarılsın.

10. 3-cü hissənin adında "Səlahiyyətli orqanla investor arasında bağlanılan müqavilələrin" sözləri "Müqavilələrin" sözü ilə əvəz edilsin.

11. 3.1.5-ci yarımbənddə "investorun istehsal edəcəyi" sözləri "investisiya qoyuluşu nəticəsində əldə olunacaq" sözləri ilə əvəz edilsin.

12. 3.1.8-ci yarımbənddə "istehsal olunan" sözləri və 3.5-ci bənddə "istehsal ediləcək" sözləri "əldə olunacaq" sözləri ilə əvəz edilsin.

13. 3.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"3.6. İnvestisiya layihəsinin həyata keçirilməsi ilə əlaqədar səlahiyyətli orqana aşağıdakılarla bağlı təminat verilməlidir:

3.6.1. namizədlər tərəfindən müsabiqə təklifinə;

3.6.2. müəyyənləşdirilmiş investor tərəfindən investisiya layihəsinin predmeti olan tikinti və infrastruktur obyektlərinin və onlara oxşar obyektlərin tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası) və istismara qəbul edilməsi ilə bağlı öhdəliklərinin imzalanacaq müqavilə ilə müəyyən edilən müddətdə və qaydada icrasına.".

14. 3.7-ci və 3.8-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"3.7. Bu sənədin 3.6-cı bəndində nəzərdə tutulan təminatların məbləğini, təqdim edilmə və qüvvədə olma müddətlərini səlahiyyətli orqan müəyyən edir və investisiya layihəsinə dair, habelə investor qarşısında müəyyən edilən şərtlərdə və tələblərdə göstərir.

3.8. Bu sənədin 3.6.1-ci yarımbəndində nəzərdə tutulan təminatın məbləği müsabiqə təklifi dəyərinin, 3.6.2-ci yarımbəndində nəzərdə tutulan təminatın məbləği isə investisiya layihəsinin dəyərinin 5 (beş) faizinədək həcmdə müəyyən edilir.".

15. 3.14-cü bənddə "3.13-cü" sözləri "3.12-ci" sözləri ilə əvəz edilsin.

16. 4.1-ci bənddə "ilə investor arasında razılaşmaya əsasən," sözləri "tərəfindən" sözü ilə əvəz edilsin.

17. 4.1.2-ci yarımbəndin ikinci cümləsində "istehsalı nəzərdə tutulan" sözləri "əldə olunacaq" sözləri ilə əvəz edilsin.

18. 4.3-cü bəndin ikinci cümləsində "investora" sözü "namizədə" sözü ilə əvəz edilsin.

19. 4.5-ci bənddə "və investorun razılığı ilə" sözləri "tərəfindən" sözü ilə əvəz edilsin.

20. 5.6-cı bəndin ikinci cümləsində "rəsmi dövlət və xarici" sözləri "rəsmi dövri mətbu nəşrlərdə və beynəlxalq miqyasda yayılan" sözləri ilə əvəz edilsin və həmin cümləyə "meyarlarını," sözündən sonra "müsabiqədə iştirak haqqını," sözləri əlavə edilsin.

21. 5.8-ci bənddə "investor" sözü "namizəd iştirak haqqını ödədikdən sonra" sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci-dördüncü cümlələr əlavə edilsin:

"Müsabiqədə iştirak haqqını müsabiqə xərclərindən (elanın verilməsi, sənədlərin çap edilməsi, bildirişlərin göndərilməsi, ezamiyyə, ekspertlərin cəlb edilməsi) çox olmamaq şərtilə müsabiqə komissiyası müəyyənləşdirir. İştirak haqqı namizədlərə geri qaytarılmır. İştirak haqqının müsabiqə xərclərindən artıq qalan hissəsini səlahiyyətli orqan dövlət büdcəsinə köçürür.".

22. 5.14-cü bəndin birinci cümləsində "şirkət" sözü "investor" sözü ilə əvəz edilsin.

23. 5.21-ci bəndin birinci cümləsinə "qalibi arasında" sözlərindən sonra "30 (otuz) iş günü ərzində" sözləri əlavə edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın.

24. 6.0.5-ci yarımbənd ləğv edilsin.

25. 6.0.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.0.6. müsabiqənin qalibi olan investorla imzalanması nəzərdə tutulmuş müqavilənin layihəsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaq və müqavilə imzalandığı tarixdən 5 (beş) iş günü müddətində həmin müqavilənin surətini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2021-ci il*

## Bağışlamaq qəlbin böyüklüyüdür

# 36-cı əfv

## İlham Əliyev 625 ailəyə sevinc bəxş etdi

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş humanizmə sadiqlik ənənəsini Prezident İlham Əliyev layiqli şəkildə davam etdirir. 2003-cü ildən bu günədək İlham Əliyevin qəbul etdiyi qərarlarda, imzaladığı sənədlərdə onun siyasi iradəsinin şahidi oluruq.





İndiyədək əlamətdar günlərdə əfv sərəncamları imzalamaqla minlərlə ailəyə sevinc bəxş edən, cəmiyyətin xoş ovqatını daha yüksəldən dövlət başçısının budəfəki Novruz bayramı ərəfəsində daha 625 ailəni sevindirməsi də bunun bariz təcəssümüdür. "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 mart tarixli Sərəncamı bir daha Azərbaycan dövlətinin humanist siyasət yürütdüyünü, dövlət başçısının humanizm dəyərlərinə bağlı olduğunu göstərir.

Bu, Prezident İlham Əliyevin indiyədək imzaladığı 36-cı, ümumiyyətlə isə Azərbaycanda sayca icra olunan 67-ci əfv sərəncamıdır. Milli həmrəyliyə istiqamətlənmiş bu humanist addımlar, ümumilikdə, indiyədək 9 minə yaxın şəxsi əhatə edib. Törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əksəriyyəti azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsindən azad olunublar.

Qeyd edək ki, budəfəki əfv sərəncamı şamil olunduğu şəxslərin sayına görə ən böyük humanist aktlardan biridir. (Ən böyük əfv sərəncamı 2018-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar imzalanan sərəncamdır - 634 məhkuma şamil edilib). Əfv edilən 625 məhkumdan 475-i azadlıqdan məhrumetmə cəzasından azad olunub. Əfv olunmaları həmin insanlara bundan sonra həyatda öz yollarını düzgün seçməklə bağlı verilmiş çox gözəl imkan və şansdır. Bu şansın verilməsi isə Azərbaycan dövlətinin humanizm siyasətinin mahiyyətindən və məzmunundan irəli gəlir.

98 şəxsin isə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. 49 nəfər isə azadlıqdan məhrumetmə ilə bağlı olmayan müxtəlif cəzalardan azad edilib. Bir neçə məhbusun isə cəzasının müddəti azaldılıb. Belə ki, ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 3 nəfərin cəzası 25 il müddətinə azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənib.

Prezident İlham Əliyev tərəfindən mütəmadi olaraq imzalanan və Azərbaycan ictimaiyyəti tərəfindən olduqca yüksək qiymətləndirilən əfv sərəncamları beynəlxalq səviyyədə də təqdir olunur. Bu eyni zamanda Azərbaycanın müsbət beynəlxalq imicinə böyük töhfə verir. Azərbaycan yeganə ölkədir ki, qısa müddətdə, yəni müstəqillik dövründə 11 amnistiya aktı, 67 əfv sərəncamı imzalanıb.

Beləliklə, yüzlərlə ailə Novruz bayramını daha yüksək sevinclə qeyd edəcək. Yüzlərlə insan bayram ərəfəsində doğmalarına, qohumlarına qovuşacaq. Bu, Azərbaycan dövlətinin və onun liderinin illərdir davam etdirdiyi humanizm siyasətinin növbəti parlaq nümunəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Müzəffər Ali Baş Komandan İlham ƏLİYEV: "Vətən müharibəsinin hər günü bizim şanlı tariximizdir"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin "Qələbə kitabı" çapdan çıxıb

**"Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".**



AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin "Qələbə kitabı" adlanan nəşrində yer alan bu fikirləri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı söyləyib.

Çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci il noyabrın 8-dən dekabrın 21-dək olan dövrü əhatə edir. Azərbaycan xalqı və rəşadətli Ordumuz Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində müasir tariximizin ən şanlı səhifəsini yazdı. Otuz il davam edən işğala son qoyuldu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Bununla da Azərbaycan bölgədə yeni reallıqlar yaratdı. "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 108-ci cildi olan "Qələbə kitabı" bu şanlı Zəfər tarixi barədə qiymətli, mötəbər mənbədir.

Kitab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ötən il noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciəti ilə açılır. Xalqımıza Şuşanın işğaldan azad edilməsi müjdəsini verən dövlət başçısı öz hisslərini belə ifadə edib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

Şuşanın azad edildiyi gün - 8 Noyabr Prezidentin Sərəncamı ilə Zəfər Günü elan edilib. Kitabdakı materiallar sırasında yer alan bu sərəncamla xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə əbədiləşdirilib.

Noyabrın 9-da "BBC News"a müsahibə verən dövlət başçısı Ermənistanın işğalçı siyasətini dərin məntiqə söykənən fikirlər, təkzibolunmaz dəlillər, tarixi faktlar əsasında bir daha ifşa etdi. Bu müsahibənin mətni də 108-ci kitaba daxil olunub.

"Qələbə kitabı"nda həmçinin Ermənistanın kapitulyasiyasını təsdiqləyən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat, habelə bununla bağlı Prezident İlham Əliyevin xalqa müraciətinin mətni ilə tanış olmaq mümkündür. Düşmənin təslim olduğu barədə xəbəri xalqa çatdıran dövlət başçısı deyib: "Bu qələbə düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonlarını bizə siyasi yolla qaytarsın. Amma burada Ermənistan tərəfinin xoş niyyətini axtarmaq yersizdir. Onlarda xoş niyyət deyilən anlayış bütövlükdə yoxdur. Sadəcə olaraq, məcbur oldu. Çünki bilirdi ki, bu sənədə imza atmasa, özümüz alacağıq bu torpaqları. Hər kəs bunu bilirdi. Mən demişdim ki, qan tökmək istəmirəm, müharibəni dayandırmalıyıq, rədd olun bizim torpaqlarımızdan! Belə də oldu".

Dövlət başçısı xalqa müraciətində onu da vurğulayıb ki, bu, bütün Azərbaycan xalqının qələbəsidir. Azərbaycan nə qədər böyük, nə qədər vətənpərvər, dəmir iradəyə malik bir xalq olduğunu bir daha göstərdi: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü topladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik".

Kitaba Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda keçirilən Zəfər paradında çıxışının mətni, qardaş ölkə liderinin Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanan sənədlərə dair informasiya, iki dövlətin başçılarının mətbuata birgə bəyanatları daxil edilib.

Nəşrdə Azərbaycan Prezidentinin Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, milli müdafiə naziri Hulusi Akar, Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidan, Rusiyanın müdafiə naziri Sergey Şoyqu, xarici işlər naziri Sergey Lavrov, fövqəladə hallar naziri Yevgeni Ziniçev ilə görüşlərinə, İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonu, ATƏT-in Minsk qrupunun həmsədrlərini, Əfqanıstanın milli təhlükəsizlik müşaviri Hamdullah Mohib və Prezident Administrasiyasının rəhbəri Məhəmməd Şakir Karqarı qəbul etməsinə dair materiallar da yer alıb.

"Qələbə kitabı"na həmçinin üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana təhvil verilməsi ilə əlaqədar Prezidentin xalqa müraciətlərinin mətnləri, dövlət başçısının 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü, işğaldan azad olunmuş Füzuli, Cəbrayıl, Ağdam rayonlarına tarixi səfərləri haqqında materiallar, rəsmi "Twitter" səhifəsində paylaşımları və digər materiallar daxil edilib.

Oxucular çoxcildliyin 108-ci kitabında Prezident İlham Əliyevin BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasında, MDB Dövlət Başçıları Şurasının iclasında çıxışlarının mətnləri ilə tanış ola bilərlər.

"Azərnəşr" tərəfindən buraxılan "Qələbə kitabı"nın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Baş nazir Əli Əsədovun Qazaxıstanın Baş naziri ilə telefon danışığı olub

**Qazaxıstan tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Baş nazir Askar Mamin arasında telefon danışığı olub.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı Askar Mamin öz həmkarını Novruz bayramı münasibətilə təbrik edib, Qazaxıstan və Azərbaycan xalqlarının uzunəsrlik dostluğunun möhkəm təmellərə söykəndiyni deyib. Azərbaycanın uğurları xüsusi vurğulanıb.

Söhbət zamanı Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin iqtisadi və ticarət aspektlərinə dair bir sıra məsələlər müzakirə olunub.

# Milli Məclisdə ölkəmizi beynəlxalq yarışlarda təmsil edən idmançılarla görüş olub

Milli Məclis sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev martın 18-də olimpiadaların, habelə dünya və Avropa çempionatlarının qalibləri İlham Zəkiyev, Aynur Məmmədova, İbrahim İbrahimov, Ramil Qasımov, Ramin İbrahimov, Zaur Paşayev, Faiq Abdullayev və Kənan Abdullaxanlı ilə parlamentdə görüş keçirib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə sədrin müavini Adil Əliyev ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər və idman siyasətindən, bədən tərbiyəsi və idmanın inkişafından, idmançılarımızın olimpiadalarda qazandığı uğurlardan, idmanın kütləviliyinin artırılması istiqamətində görülən işlərdən danışıb.

Adil Əliyev idmançılarımızın qayğılarının həmişə dövlətimizin diqqət mərkəzində olduğunu vurğulayaraq, hər il idmançıların dövlət başçısı tərəfindən qəbul edilərək mükafatlandırılmasına, onların problemlərinin həlli istiqamətində zəruri addımların atılmasına diqqət çəkib. Ölkəmizin paralimpiya hərəkatında da yüksək nəticələr əldə etdiyini deyən Adil Əliyev paralimpiyaçıların daim ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil etdiyini və yüksək nəticələr göstərdiyini bildirib.

Qeyd edib ki, Azərbaycanın dünyanın diqqət mərkəzində olan olimpiadaların, Avropa və İslam Həmrəyliyi oyunlarının, "Formula-1" kimi yarışların yüksək səviyyəli təşkilatçısı olması qürurvericidir.

Bədən tərbiyəsi və idmanın gənc nəslin həyatındakı rolundan danışan vitse-spiker dövlət başçısının rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad edən rəşadətli ordumuzun fiziki hazırlığı, maddi texniki bazası, keçirilən təlimlərin nəticəsi barədə fikirlərini bölüşüb.

Söhbət zamanı gənclərin idmana həvəsinin artırılması, onların vətənpərvərlik ruhunda yetişdirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılıb. Vitse-spiker idmançılarımızın beynəlxalq yarışlara hazırlıq vəziyyəti ilə yaxından maraqlanıb, döyüş meydanında qazanılan Zəfərin idmanda da davam edəcəyinə əminliyini bildirib.

Sonda ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən idmançılara Milli Məclisin Gənclər və idman komitəsinin fəxri fərmanı təqdim olunub.

# Revanşist və təhlükəli fikirlərlə öz əhalisini zəhərləmək Ermənistana yaxşı heç nə vəd etmir

**Azərbaycan Respublikası Prezidentinin Azərbaycan ərazilərinə səfərlər etməsi Ermənistan Xarici İşlər Nazirliyinin şərh mövzusu ola bilməz.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb. Ermənistan XİN-i mövcud olmayan dağıntılar barədə danışmadan öncə 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən tarixi, mədəni və dini irsin talan edilməsi və "təmizləmə" siyasəti, o cümlədən yüzlərlə abidənin yerləyeksan edilməsi, 63 məscidin tamamilə yer üzündən silinməsini unutmamalıdır.

Ermənistan tərəfi hələ də anlamır ki, bu kimi ritorikadan uzaqlaşmaq və imzalanmış üçtərəfli bəyanatların icrasına köklənmək lazımdır. Revanşist və təhlükəli fikirlərlə öz əhalisini zəhərləmək Ermənistana yaxşı heç nə vəd etmir.

**Biz birlikdə güclüyük!**

# Nazirlər Kabineti xüsusi karantin rejiminin uzadılması və aprel-may ayları üçün ictimai nəqliyyatın hərəkətinə dair qərar qəbul edib

**Nazirlər Kabinetinin Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Qərarı imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 iyun saat 06:00-dək uzadılır.

Qərara əsasən, aprel və may aylarında ictimai nəqliyyatın hərəkəti aşağıdakı qaydada tənzimlənəcək:

- 2021-ci il 3 aprel saat 00:00-dan 5 aprel saat 06:00-dək;
- 10 aprel saat 00:00-dan 12 aprel saat 06:00-dək;
- 17 aprel saat 00:00-dan 19 aprel saat 06:00-dək;
- 24 aprel saat 00:00-dan 26 aprel saat 06:00-dək;
- 1 may saat 00:00-dan 3 may saat 06:00-dək;
- 8 may saat 00:00-dan 10 may saat 06:00-dək;
- 15 may saat 00:00-dan 17 may saat 06:00-dək;
- 22 may saat 00:00-dan 24 may saat 06:00-dək;
- 29 may saat 00:00-dan 31 may saat 06:00-dək Azərbaycan Respublikası ərazisində ictimai nəqliyyatın hərəkəti dayandırılır.

# Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının iclası olub



**Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovun sədrliyi ilə Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının videokonfrans formatında iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda ölkəmizə gətirilən humanitar yardımların qəbulu, təyinatı üzrə paylanılması, uçotu, nəzarətin həyata keçirilməsi və bunlarla bağlı digər işlərin təşkil edilməsinə dair bir sıra məsələlər müzakirə olunub.

İclasda irəli sürülmüş təkliflərə dair komissiya üzvləri tərəfindən müzakirələr aparılıb, iclasın yekunu olaraq Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni əsasnamə layihəsinin qəbulu və katibliyinin yaradılması istiqamətində işlərin sürətli davam etdirilməsi qərara alınıb.

# YAP Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü Mixail Zabelinin 75 illik yubileyi münasibətilə görüş

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Yuryeviç Zabelinin 75 illik yubileyi münasibətilə görüş keçirilib.



YAP-dan AZƏRTAC-a bildiriblər ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edərək ona möhkəm cansağlığı, çoxşaxəli fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Yubilyarın siyasi fəaliyyətindən bəhs edən Tahir Budaqov qeyd edib ki, Mixail Zabelin Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Rus İcmasının rəhbəri kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Vurğulanıb ki, Mixail Zabelinin fəaliyyətinin mühüm bir dövrü görkəmli siyasi və dövlət xadimi, Ümummilli Liderimiz Heydər Əliyevlə bağlı olub. Ulu Öndər Azərbaycan SSR-in Birinci katibi işləyərkən onun rəhbərliyi altında çalışmış, o cümlədən Birinci katibin referenti vəzifəsində işləmişdir.

Mixail Zabelin Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının təşkilatlanma prosesində fəallıq göstərmiş, partiyanın Siyasi Şurasının və İdarə Heyətinin üzvü kimi üzərinə düşən vəzifəni hər zaman layiqincə yerinə yetirmiş, hazırda YAP İdarə Heyətinin üzvü kimi siyasi fəaliyyətini uğurla davam etdirir. O da qeyd edilib ki, Mixail Zabelinin rəhbərlik etdiyi Azərbaycan Rus İcması xalqlarımız arasında tarixi, mədəni əlaqələrin keyfiyyətcə yeni müstəvidə inkişafına öz töhfəsini verməkdədir. Bütün bunlar nəzərə alınaraq, onun ictimai-siyasi fəaliyyəti ölkə Prezidenti İlham Əliyev tərəfindən daim yüksək qiymətləndirilib, müxtəlif orden və medallarla təltif olunub.

Görüşdə çıxış edən Mixail Zabelin fəaliyyətinə verilən yüksək qiymətə, deyilən xoş sözlərə görə təşəkkürünü bildirib. Yubilyar Yeni Azərbaycan Partiyasının VII qurultayında ona yenidən yüksək etimad göstərildiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə, Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığını bildirərək, Azərbaycanın inkişafı naminə bundan sonra da əlindən gələni əsirgəməyəcəyini qeyd edib.

Çıxışında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya səfərinə toxunan Mixail Zabelin bu mühüm hadisənin Azərbaycan-Rusiya münasibətlərinə öz töhfəsini verdiyini önə çəkərək bildirib ki, xalqlarımız bundan sonra da mehriban qonşuluq və sülh şəraitində yaşayacaq. Mixail Zabelin vurğulayıb ki, Azərbaycan onun doğma Vətənidir. 44 gün davam edən Vətən müharibəsində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik birliyimizi, həmrəyliyimizi nümayiş etdirdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri fədakarlıq, qəhrəmanlıq göstərdi, Vətən uğrunda vuruşdu. "Biz artıq qalib Azərbaycanın vətəndaşlarıyıq", - söyləyən Mixail Zabelin bu Zəfəri yaşadan dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığını ifadə edib. Bildirib ki, Azərbaycan artıq postmüharibə dövrünün reallıqlarını yaşayır. Bu reallıqlar ölkəmizi daha uğurlu gələcəyə istiqamətləndirir.

# *Şahmar MÖVSÜMOV:* "Yoluxma sayındakı artım və "Britaniya ştammı"nın ölkəmizdə aşkar edilməsi ciddi narahatlıqlar yaradır"

Artıq bir ildən çoxdur bütün dünya COVID-19 pandemiyası ilə mübarizə aparır. Pandemiya bütün ölkələrə müxtəlif formada mənfi təsirlər edir. Beynəlxalq mətbuatdan da görürük ki, artıq bir sıra ölkələr yenidən qapanmalara gedirlər.






AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın martın 19-da təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

"Təbii ki, məhdudiyyətlər virusun yayılma sürətini azaldır və ölkələrə səhiyyə sisteminin davamlılığını təmin etmək imkanı verir. Son zamanlar Azərbaycanda da yoluxma sayı artır. Son məhdudiyyətlər aradan qaldırıldıqdan sonra bu gözlənilən idi. Çünki yumşalmalardan sonra insanların aktivliyi artdı və nəticə etibarilə yoluxmaların sayında artım müşahidə olunur. Təbii ki, bu da narahatedici məqamdır", - deyən Prezidentin köməkçisi vurğulayıb.

Bu gün verilən qərara əsasən, qarşıdakı bayram günlərində ictimai nəqliyyatın fəaliyyət göstərməyəcəyini bildirən Şahmar Mövsümov yoluxmaların sayındakı artım və "Britaniya ştammı"nın ölkəmizdə aşkar edilməsi ciddi narahatlıqlar yaradır. Eyni zamanda son bir il ərzində dövlət başçısının və Birinci vitse-prezidentin nəzarəti altında səhiyyə sistemimizin imkanları ciddi şəkildə artırılıb. Həmçinin yanvar ayından vaksinasiya prosesinə də başlanılıb. Hazırda ümumilikdə 10 min çarpayılıq xəstəxanalarda 1500-1600 xəstə müalicə alır. Bu, bizə imkan verir ki, hazırda ciddi sərtləşməyə getməyək. Amma vətəndaşlarımıza çatdırmaq istərdim ki, yoluxma sayının kəskin artması və xəstəxanalarda müalicə alanların çoxalması, xüsusilə də reanimasiya şöbələrində çarpayıların çatışmazlığı müşahidə olunduqda xüsusi sərtləşdirilmiş şəraitə, yəni ciddi məhdudiyyətlərə getmək məcburiyyətində qalacağıq.

# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışı keçirilib



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov martın 19-da respublikanın şəhər və rayon polis orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən nazirliyin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, nazirliyə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 160 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Qeyd edək ki, onlardan 57 nəfəri torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş gənclər olub.

Tədbirdə çıxış edən general-polkovnik Vilayət Eyvazov onları Novruz bayramı münasibətilə təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayaraq daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini artırmalarını, üzərlərində səylə çalışmalarını və vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini vermələrini tövsiyə edib.

# Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib

**Martın 19-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin növbəti onlayn iclasında iki məsələyə baxılıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsi və yenidən qurulması istiqamətində görülən işlərdən söz açıb, uzun illərdən sonra Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd etdiyimiz Novruz bayramı münasibətilə təbriklərini çatdırıb.

Onlayn iclasda mahiyyət etibarilə bir-birini tamamlayan "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanunda dəyişiklik edilməsi (birinci oxunuş) və Əmək Məcəlləsində dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələrini Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin Əmək qanunvericiliyi sektorunun müdiri Ziya Qasımov təqdim edib. Bildirib ki, ölkədə həyata keçirilən sosial islahatlar nəticəsində sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsində formalaşmış vahid sistemin fəaliyyəti müasir tələblər səviyyəsində təşkil olunub. Azərbaycan Prezidentinin 2018-ci il 5 sentyabr tarixli Sərəncamına əsasən yaradılan "e-sosial.az" internet portalı sayəsində bu gün hər bir vətəndaş özünə aid əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya, ödənilmiş məcburi dövlət sosial sığorta haqları və s. ilə bağlı məlumatları FİN nömrəsi ilə həmin internet portalı üzərindən əldə edə bilir. Bu da şəhadətnamələrin kağız daşıyıcıda verilməsinin aktuallığını aradan qaldırır.

Deputatların nəzərinə çatdırılıb ki, "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanunda ümumilikdə 10 əlavə və dəyişiklik nəzərdə tutulur. Təklif olunan dəyişikliklər qəbul edildikdən sonra fərdi uçot sistemində proseslərin tam elektronlaşmasına mane olan hallar aradan qaldırılacaq, elektron pensiya sisteminin əhatə dairəsi genişlənəcək və qənaət edilmiş xərclər vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldiləcək. Əmək Məcəlləsinə təklif olunan redaktə xarakterli 3 əlavə və dəyişiklik də bu qanuna ediləcək dəyişikliklərdən qaynaqlanır. Sonra iclasda iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Elnur Abbasov müzakirəyə çıxarılmış qanun layihələrini şərh edib.

Müzakirələrdə Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, deputatlardan Vüqar Bayramov, Soltan Məmmədov, Arzu Nağıyev qanun layihələrinə dair rəy və təkliflərini bildiriblər. Nazirliyin nümayəndəsi Elnur Abbasov deputatları maraqlandıran suallara cavab verib.

Fikir mübadiləsinin yekununda komitədə baxılan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Onlayn iclasda Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı və komitə üzvləri Əziz Ələkbərov, Aqil Məmmədov, Rauf Əliyev, Sevinc Hüseynova, İlham Məmmədov, Ziyad Səmədzadə, Səttar Möhbalıyev də iştirak ediblər.

# İqtisadi sektorda işləyənlərin sayı 2,6 faiz artıb

Cari il fevralın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 43,4 min nəfər və ya 2,6 faiz artaraq 1 milyon 684,4 min nəfər olmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, onlardan 915,3 min nəfəri iqtisadiyyatın dövlət, 769,1 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,6 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,7 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,5 faizi tikinti, 6,7 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar. 2021-ci ilin yanvar ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3 faiz azalaraq 690,9 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# *Yaqut QARAYEVA:* "Mutasiyalar viruslara xas olan prosesdir"

**Hazırda dünyada SARS-CoV-2 virusunun üç variantı daha çox müzakirə olunur. Bunlardan biri də ötən il dekabrın 14-də Böyük Britaniya tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına məlumatı verilmiş Britaniya ştammıdır. Mutasiyalar viruslara xas olan bir prosesdir.**

Qrip xəstəliyinə qarşı hər il yeni peyvənd istehsal olunur və onu vurmaq lazım olur. Bu da qrip virusunun çox sürətli şəkildə cürbəcür mutasiyalarının baş verməsidir. Bir virusda mutasiyanın baş verməsi çox təbii bir prosesdir. Burada bizi daha çox baş vermiş mutasiyanın xəstəliyin və yoluxmanın gedişatına təsiri maraqlandırır.

AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

"Bu günə qədər rəsmi olaraq Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən bildirilən məlumat odur ki, bu növ bundan öncəki ştamlardan daha sürətli yoluxmaya malikdir. Bütün dünyada həmin ştammın yayılması çox sürətlə baş verir. Ona görə də həmin ştammın aşkarlandığı ölkələrdə bəzi qabaqlayıcı tədbirlər görülür.

Bundan əlavə, Braziliya və Cənubi Afrikada da yeni ştamlar aşkarlanıb ki, onların da xəstəliyin gedişatına olan təsiri araşdırılır.

Ümumdünya Səhiyyə Təşkilatı yeni ştammla əlaqədar olaraq, sadəcə, profilaktik tədbirlərin gücləndirilməsini tövsiyə edir. Mövcud vaksinlər də yeni ştamlara təsir göstərir. Bu da bizi vaksinasiya prosesini daha sürətlə aparmağa sövq edir".

❖ ❖ ❖

Ən çox yoluxma payı hər zaman olduğu kimi, Bakı şəhərinin üzərinə düşür. Belə ki, ölkə üzrə yoluxma hallarının 52.9 faizi paytaxtda qeydə alınıb.

Y.Qarayeva bildirib ki, paytaxtdan sonra Abşeron rayonunda, Sumqayıt şəhərində, Aran zonasında, Gəncə-Qazax bölgəsində yoluxmalar yüksək olaraq qalır. Bu da həmin bölgələrdə əhalinin sıxlığı və sosial aktivliyi ilə əlaqədardır.

# Bayram günlərində ölkə ərazisində ictimai nəqliyyatın hərəkəti dayandırılacaq

Nazirlər Kabineti bayram günlərində ictimai nəqliyyatın fəaliyyətinin tənzimlənməsinə dair qərar qəbul edib.

AZƏRTAC xəbər verir ki, qərara əsasən, martın 20-si saat 00.00-dan martın 29-u saat 06.00-dək Azərbaycan Respublikasının ərazisində ictimai nəqliyyatın hərəkəti dayandırılır.

# Azərbaycanda koronavirus infeksiyasına 879 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 334 nəfər müalicə olunaraq sağalıb, 879 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 244 min 303 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 232 min 228 nəfər müalicə olunaraq sağalıb, 3325 nəfər vəfat edib. Aktiv xəstə sayı 8750 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 756 min 457 test aparılıb. Dünənki test sayı isə 9776-dır.

# Qubadlı rayonunda Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb

Martın 19-da Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, bununla əlaqədar təşkil olunmuş mərasimdə Xidmət rəisinin müavini general-leytenant Azad Ələkbərov çıxış edərək yeni hərbi hissənin fəaliyyətə başlaması münasibətilə DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb. Çıxışda tədbirin Vətən müharibəsində xalqımızın haqq mübarizəsinin tarixi zəfərlə başa çatması, şanlı qələbənin coşqusunun yaşandığı dövrə, eləcə də milli-mənəvi irsimizin və ənənələrimizin rəmzi sayılan Novruz bayramı ərəfəsinə təsadüf etməsi xüsusi vurğulanıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası, o cümlədən Ermənistan Respublikası ilə dövlət sərhədinin azad olunmasından sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, bu ərazilərdə qısa müddətdə artıq sayca dördüncü hərbi hissənin xidməti-döyüş fəaliyyətinə başlamasının azad edilmiş dövlət sərhədlərimizin etibarlı mühafizə altına götürülməsi prosesi üçün böyük əhəmiyyət kəsb etməsi qeyd olunub.



Çıxışda Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşən Azərbaycan sərhədçisinin bu gün də səngərdə və sərhəddə böyük əzmlə xidmət apararaq dövlət maraqlarının müdafiəsini təmin etməkdən qürurlandığı, ölkəmizin müqəddəs hüdudlarının toxunulmazlığının təmin edilməsi kimi şərəfli vəzifəni bundan sonra da layiqincə yerinə yetirəcəyinə əminlik bildirilib.

Tədbirin sonunda xidməti fəaliyyətində yüksək nəticələr göstərmiş bir qrup hərbi qulluqçu təltif edilib.

Mərasimdə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun nümayəndələri də iştirak edib, yeni hərbi hissənin xidməti-döyüş fəaliyyətinə başlaması və Novruz bayramı münasibətilə Azərbaycan sərhədçilərini təbrik edib, dövlət sərhədlərinin etibarlı mühafizəsi kimi fədakar fəaliyyətlərində xidməti müvəffəqiyyətlər arzulayıblar.

Sonra mərasim iştirakçıları sərhəd komendantlığının hərbi qulluqçularının xidməti-döyüş fəaliyyətinin yerinə yetirilməsi üçün yaradılmış şəraitlə tanış olublar.

***"Azərbaycan"***

# Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının 5-ci iclası olub

**Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının 5-ci iclası keçirilib.**




İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, videokonfrans formatında keçirilən tədbirdə iqtisadiyyat naziri, Koordinasiya Şurasının sədri Mikayıl Cabbarov, Koordinasiya Şurasının üzvləri - Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, ədliyyə nazirinin müavini Toğrul Musayev, xarici işlər nazirinin müavini Xələf Xələfov, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, SOCAR-ın vitse-prezidenti Elşad Nəsirov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov, Dövlət Sərhəd Xidməti Sərhəd Nəzarətinin rəisi Abbas Xəlilov, həmçinin dəvət olunan qismində Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov iştirak ediblər.

M.Cabbarov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini vurğulayıb. Vətən müharibəsində canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Koronavirus pandemiyasının mənfi təsirlərindən danışan nazir dövlət başçısının bu təsirlərin minimallaşdırılması üçün çevik və zəruri qərarlar qəbul etdiyini diqqətə çatdırıb. Bildirilib ki, pandemiyanın iqtisadiyyatın bir çox sahələrinə mənfi təsir göstərməsinə baxmayaraq, tranzit sektorunda stabillik müşahidə olunub. Belə ki, 2020-ci ildə 8,2 milyon ton yük daşınıb və əvvəlki illə müqayisədə cəmi 0,3 faiz azalma qeydə alınıb. Qeyri-neft sektoru üzrə tranzit daşımalarda yüklərin həcmi son 6 ildə 3,5 dəfədən çox artaraq ötən il 3,5 milyon ton təşkil edib. Daşımaların 83 faizi dəmir yolu, 17 faizi isə avtomobillə (TIR) həyata keçirilib. TIR-la tranzit daşımalar son 6 ildə "Şərq-Qərb" tranzit dəhlizi üzrə ildə orta hesabla 100 min ton artaraq keçən il 600 min tona çatıb. Dəmir yolu ilə daşımalarda ən çox artım "Şimal-Qərb" marşrutu üzrə müşahidə olunub. Bu dəhlizlə daşımalar son 6 ildə 4 dəfə artıb. Koordinasiya Şurasının sədri ötən ilin iyununda keçirilən şuranın 4-cü iclasında qəbul edilmiş qərarların icrası ilə bağlı işlərin üzvlər tərəfindən aidiyyəti üzrə sürətləndirilməsinin zəruriliyini vurğulayıb.

İclasda tranzit yükdaşımaları istiqamətində həyata keçirilən islahatlar və tədbirlər barədə məlumat verilib, bu sahədə mövcud vəziyyət və səmərəliliyin artırılması, tarif və prosedurların təkmilləşdirilməsi, "Şimal-Cənub" və "Şərq-Qərb" tranzit dəhlizləri çərçivəsində Azərbaycanın rolunun gücləndirilməsi, gömrük anbarları sisteminin yaradılması və sair məsələlər müzakirə olunub, Birləşmiş Tranzit Operatorunun direktoru vəzifəsinə Tamerlan Vahabovun təyin edilməsi, Koordinasiya Şurasının Katibliyinin işinin təşkili və digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

# Görkəmli rəssam Tahir Salahov haqda yeni kitab - "Dialoq"

## Tahir Salahovun həyat və yaradıcılığına işıq salan kitab Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə nəşr edilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə görkəmli rəssam Tahir Salahov haqqında "Dialoq" adlı kitab işıq üzü görüb.




AZƏRTAC xəbər verir ki, rus dilində nəfis tərtibatla nəşr edilmiş kitab Azərbaycanın, SSRİ-nin, habelə Rusiyanın Xalq rəssamı, iki dəfə Azərbaycan Dövlət mükafatı laureatı, SSRİ və Rusiya Dövlət mükafatları laureatı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, UNESCO-nun Beynəlxalq Plastik Sənətlər Assosiasiyasının vitse-prezidenti Tahir Salahovla dialoq janrında yazılıb. Kitabın müəllifi musiqişünas, pedaqoq, və publisist Raya Abbasovadır. Müəlliflə "Dialoq"da Tahir Salahov yaşadığı çətin və şərəfli ömür, həmçinin həyatının fərqli dövrləri ilə bağlı səmimi etiraflar edir, fikirlər səsləndirir.

Kitab Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın böyük sənətkar Tahir Salahova 90 illik yubileyi münasibətilə ünvanladıqları məktublarla açılır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, "Baku" jurnalının baş redaktoru Leyla Əliyeva "Böyük sənətkarın dünyası" sərlövhəli məqaləsində rəssam Tahir Salahovun yaradıcılığının özəlliyindən, əsərlərinin qəhrəmanlarına məxsusi yanaşmasından bəhs edilir. Leyla xanım yazır ki, rəssamın qəhrəmanlarını - neftçiləri, fəhlələri, həkimləri, yazıçıları, bəstəkarları, musiqiçiləri, artistləri, din nümayəndələrini, doğmalarını və yaxınlarını peşələrinə məhəbbət və sadiqlik birləşdirir. Ən əsası isə onların heç biri xəyali personaj deyil, hamısı rəssamın həyatında iz qoymuş insanlardır.

"Dialoq" kitabı rəssamın həyat və yaradıcılığının önəmli məqamlarını əks etdirən fotoşəkillərlə, fırçasının məhsulu olan əsərlərlə müşayiət olunur. Dünya şöhrətli sənətkar Azərbaycan mədəniyyətinə böyük töhfələr verib. Onun əsərləri mötəbər muzey və qalereyalarda, eləcə də şəxsi kolleksiyalarda saxlanılır. Tahir Salahov məşhur insanların, məsələn, Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Dmitri Şostakoviç, Mstislav Rostropoviç, Səttar Bəhlulzadə, Fikrət Əmirov, Rəsul Rza, Aleksandr Soljenitsın və başqalarının portretlərini çəkib. Bu əsərlərin sırasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin portreti xüsusi yer tutur. Rəssam Ulu Öndərin portretini böyük sevgi və xüsusi məharətlə işləyib.

Tahir Salahov realist rəssam kimi tanınır. Onun rəssamlıqda "sərt üslub"un banilərindən biri kimi yaratdığı sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışı və fəlsəfi düşüncələri rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapıb. O, fikir və düşüncələrini fırça ilə çox aydın və anlaşıqlı, obrazlı şəkildə çatdıran qüdrətli sənətkardır.

Dahi sənətkarın tabloları təkcə Azərbaycan incəsənətinin deyil, həm də dünya təsviri sənətinin inciləri sırasındadır. Onun yaratdığı hər bir portret, peyzaj fəlsəfi əsər təsiri bağışlayır.

Tahir Salahov mahir rəssam olmaqla yanaşı, həm də görkəmli ictimai xadim, pedaqoqdur. Onun çoxşaxəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Tahir Salahov ölkəmizin ən ali mükafatı olan "Heydər Əliyev" ordeninə layiq görülüb. O, həmçinin Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimidir.

Prezident İlham Əliyevin Sərəncamına əsasən, 2012-ci ildə İçərişəhərdə ustad sənətkarın ev-muzeyi yaradılıb. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov qeyd edir ki, bu gün muzey qədim şəhərdə ən çox ziyarət olunan məkanlardan, əsas incəsənət və mədəniyyət mərkəzlərindən biridir. Ekspozisiyada nümayiş etdirilən 700-dən çox eksponat rəssam tərəfindən muzeyə hədiyyə olunub.

Maraqla oxunan "Dialoq" kitabı Tahir Salahov yaradıcılığına göstərilən diqqətin daha bir təzahürü olmaqla yanaşı, onun bənzərsiz irsinin gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

# Dünya Bankı Azərbaycanın yeni uğurunu elan etdi

*Əvvəli 1-ci səh.*

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) baş analitiki Günay Quliyeva şərhində yazır ki, təqdim edilən təhlildə baza-xərc strukturunun dəqiqləşdirilməsi iqtisadi inklüzivlik proqramlarının xərc səmərəliliyini daha yaxşı qiymətləndirməyə şərait yaradır. Hesabat hökumət və qeyri-hökumət proqramlarının mürəkkəb xərc təhlilini sadələşdirməyə yeni imkanlar açır: "Hesabatda göstərilir ki, iqtisadi inklüzivlik proqramlarının ümumi dəyərinin hesablanmasında "etiket qiyməti" (price tag) yanaşması yanlış ola bilər. Belə ki, iqtisadi inklüzivlik proqramlarının dəyəri qrantlar, pul köçürmələri, aktiv və ya istehsal vasitələri transfertləri və sosial müdafiə ödəmələri formalarından birini istifadə edərək yaradılan dəyərlə müəyyənləşir. Hesabatın nəticələrinə əsasən, təhlil olunan 219 iqtisadi inklüzivlik proqramının müəyyən dövr üçün (ortalama 3 il yarım) adambaşına yaratdığı dəyər 41 ilə 2253 ABŞ dolları (2011-ci il alıcılıq qabiliyyəti pariteti üzrə) arasında dəyişir. Azərbaycan bu göstərici üzrə adambaşına 2056 ABŞ dolları dəyər yaratmaqla ən yuxarı sıralardadır".

İİTKM-nin baş analitikinin şərhində o da bildirilir ki, hesabata görə, Azərbaycanda seçilmiş proqram əsasən iqtisadi fəaliyyətin inkişafına və özünüməşğulluğa yönəldiyi üçün başlıca xərc komponenti ümumi xərcin 56 faizi olmaqla aktiv transfertləri təşkil edir. Çatdırılma və işçi xərclərinin ümumi xərclərdə dəyəri üzrə Azərbaycan 14 faizlə təhlil olunan proqramlar üzrə orta göstərici olan 13 faizdən cüzi aşağıdır. Hesabata əsasən, inklüzivlik proqramlarında həssas əhali qrupunun iqtisadi inkişafını təmin etmək üçün aktiv transfertlər (adambaşına düşən orta illik istehlakın 67 faizini təşkil edən 1469 ABŞ dolları dəyərində) göstəricisinə görə Azərbaycan sıralanan ölkələr arasında liderdir. Yəni "Məcburi köçkünlərin iqtisadi inkişafına yardım layihəsi" çərçivəsində verilən qrantlar bankda hesab açıb hüquqi şəxs kimi aidiyyəti qurumlarda qeydiyyatdan keçərək biznes fəaliyyətinə başlamağa imkan verir.

Beləliklə, İİTKM-nin baş analitiki Günay Quliyeva yekun qənaətə gəlir. Onun sözlərinə görə, hesabatın hazırlanması zamanı aparılan təhlillər bir daha təsdiq edir ki, Azərbaycan həssas əhali qrupunu layiqli həyat şəraiti ilə təmin etmək üçün iqtisadi inklüzivlik proqramlarını uğurla həyata keçirir. Bu təcrübədən Qarabağa böyük qayıdış prosesində geniş istifadə olunacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ölkəmizdə becərilən üzüm sortları pasportlaşdırılır

## Bu mövzuda yazılan elmi əsərlər prosesin uğurla aparılmasına dəstək verir

Azərbaycanda üzümçülüyün və şərabçılığın inkişafına yönəldilən dövlət proqramları aqrar sektorun bu sahəsinin dirçəldilməsi strategiyasını müəyyənləşdirən mühüm dövlət sənədləridir. Bu proqramlara uyğun olaraq hazırda ölkədə becərilən üzüm sortlarının pasportlaşdırılması mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Belə ki, bunun xalqımıza məxsus olan qiymətli üzüm sortlarının təsdiq edilməsində, qədim seleksiya nümunələrinin başqaları tərəfindən mənimsənilməsinin qarşısının alınmasında böyük rolu var.




Üzümçülüyün inkişaf etdirilməsi problemlərini araşdıran elmi-tədqiqat institutlarında üzüm genofondunun qorunması, tədqiqi, sort tərkibinin daha iqtisadi səmərəli süfrə və texniki sortlarla zənginləşdirilməsi və digər məsələlər ətraflı öyrənilir. Bu baxımdan respublikanın üzümçü mütəxəssislərinin yazdığı "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", iki cilddən ibarət "Azərbaycan ampeloqrafiyası", həmçinin "Azərbaycan üzümü", "Azərbaycanın üzüm sortları", "Naxçıvan Muxtar Respublikasının üzüm genofondu və seleksiyası" kimi fundamental əsərlər ölkədə üzümçülüyün elmi əsaslarla genişləndirilməsində, istehsal prosesində məqsədyönlü sort seçiminin düzgün aparılmasında, sözügedən sahələrdən yüksək maddi gəlirin əldə olunmasında mühüm elmi-praktiki əhəmiyyət daşıyır.

Qeyd edək ki, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun "Meyvə, tərəvəz və üzümçülük" laboratoriyasının rəhbəri, aqrar elmlər doktoru, dosent Varis Quliyevin müəllifi olduğu və 2012-ci ildə nəşr edilmiş "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası" kitabı muxtar respublikada üzüm genofondunun tədqiqi əsasında becərilən yerli sortların pasportlaşdırılmasına aid ilk fundamental əsərdir. Monoqrafiya giriş, ümumi ampeloqrafiya, xüsusi ampeloqrafiya bölmələrindən ibarətdir. Giriş bölməsində əcnəbi və yerli tədqiqatçıların ampeloqrafiya elminin inkişafı istiqamətində apardıqları elmi-tədqiqat işləri işıqlandırılmışdır. Kitabın ümumi ampeloqrafiya bölməsində qədim Naxçıvan diyarında üzüm tənəyinin becərilməsi və məhsulun emal olunmasının inkişaf yolundan bəhs edən tarixi mənbələr göstərilmişdir. Nəşrdə muxtar respublikada yayılan 120-dən artıq yerli, 23 introduksiya olunmuş, 17 yeni klon variasiyaları və seleksiya üsulları ilə alınmış sortlar ilk dəfə olaraq pasportlaşdırılaraq onların ampeloqrafik təsvirləri və rəngli fotoşəkilləri verilmişdir. Kitabın xüsusi ampeloqrafiya bölməsində Naxçıvanda becərilən kişmişi, süfrə sortları, universal, texniki, introduksiya olunmuş sortlar və yeni alınmış üzüm formalarının ampelo-deskriptor xüsusiyyətləri beynəlxalq miqyasda qəbul edilmiş qaydada kodlaşdırılmış, onların aqrobioloji, texnoloji cəhətləri göstərilmişdir. Əsərin sonunda Naxçıvan MR-də becərilən 41 aborigen, həmçinin introduksiya edilmiş 9 süfrə, 5 universal və 9 texniki üzüm sortlarının iqtisadi qiymətləndirilməsi aparılmışdır.

Varis Quliyev və aqrar elmləri doktoru, dosent Vüqar Səlimov tərəfindən yazılan iki cilddən ibarət "Azərbaycan ampeloqrafiyası" adlı nəşr Azərbaycan ərazisində becərilən üzüm sortlarının pasportlaşdırılmasına, həmçinin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın icra edilməsinə həsr olunmuş əsər kimi dəyərləndirilir.

2017-ci ildə nəşr edilən birinci cild giriş, ümumi, interaktiv, xüsusi ampeloqrafiya və ədəbiyyat siyahısı bölmələrindən ibarətdir. Kitab Azərbaycan dilində yazılmaqla əsas bölmələr ingilis və rus dillərində də verilmiş, üzüm sortlarının irsi əlamətlərinin və adlarının şifrələnməsi, kodlaşdırılması aparılmışdır. Əsərdə Azərbaycanda ampeloqrafik tədqiqatlar və üzümçülüyün tarixi inkişaf yolu, müasir vəziyyəti, əsas üzümçülük bölgələrinin imkan və perspektivləri araşdırılmışdır. Monoqrafiyada həmçinin müasir ampeloqrafik metodikalar işıqlandırılmış, 16 kişmişi, 70 aborigen süfrə sortunun pasportlaşdırılması aparılmaqla onların ampeloqrafik təsvirləri və fotoşəkilləri verilmişdir. Əsərin sonunda Azərbaycanda ampeloqrafik tədqiqatlara aid ədəbiyyat mənbələri haqqında məlumat yerləşdirilmişdir.

2020-ci ilin sonunda "Müəllim" nəşriyyatı tərəfindən oxuculara təqdim olunan nəşr isə ölkədə üzüm genofondunun ampeloqrafik tədqiqinə həsr olunan və 2017-ci ildə nəşr edilən birinci cild "Azərbaycan ampeloqrafiyası"nın davamıdır. İkinci cilddəki monoqrafiya 4 əsas bölmədən və 9 fəsildən ibarətdir. Giriş bölməsində Azərbaycanda üzümçülük, "Ümumi ampeloqrafiya" bölməsində ampeloqrafik tədqiqatlar, üzümçülüyün inkişaf strategiyası, becərilən üzüm sortlarının genofondunun tərkibi, üzümçülüyün yenidən inkişaf etdirilməsinin elmi əsasları, üzüm sortlarının polimorfizim xüsusiyyətləri haqqında məlumat verilmişdir. Kitabın "Rəqəmsal ampeloqrafiya" bölməsində Azərbaycan ərazisində becərilən üzüm sortlarının şifrə və kodları, "Xüsusi ampeloqrafiya" bölməsində isə universal, texniki, seleksiya yolu ilə yeni alınmış və introduksiya olunmuş geniş yayılan sortların ampeloqrafik təsvirləri təqdim edilmişdir. Qeyd edək ki, hər iki əsərdə Azərbaycanda ampeloqrafik tədqiqatlara dair elmi əsərlərin siyahısı da öz əksini tapmışdır.

Nəşr olunan fundamental ampeloqrafik əsərlərdə əsas elmi yenilik ondan ibarətdir ki, burada ilk dəfə olaraq becərilən üzüm sortları pasportlaşdırılmışdır. Monoqrafiyalarda dünya ampeloqrafiya elminin yeni sahəsi olan "Rəqəmsal ampeloqrafiya"nın müvafiq metodikaları əsasında Azərbaycanda 270-dən artıq üzüm sortunun beynəlxalq miqyasda qəbul edilmiş 300-dən artıq əsas genetik əlamətləri, irsi dəyişkənlik xüsusiyyətləri, eyni zamanda adları müvafiq qaydada kodlaşdırılmış və şifrələnmişdir. Bununla yanaşı, kitablarda üzüm sortlarında genetik əlamətlərin beynəlxalq miqyasda qəbul edilmiş şifrə və kodlar əsasında oxunması üçün Azərbaycan, ingilis və rus dillərində açarları verilmişdir. Bu açarlardan istifadə etməklə ayrı-ayrı xalqların kənd təsərrüfatı işçiləri, fermerlər, iş adamları Azərbaycanda mövcud olan üzüm sortlarının tam ampeloqrafik təsviri, aqrobioloji keyfiyyətləri, kimyəvi-texnoloji xüsusiyyətləri haqqında elmi məlumatlar əldə edir və onlardan öz təsərrüfatlarında istifadə edirlər.

Qeyd edək ki, ilk dəfə yazılan fundamental ampeloqrafik əsərlər elmi, metodiki və praktiki əhəmiyyətə malik olmaqla, həm üzümçülük ixtisası üzrə təhsil alan tələbələr üçün mükəmməl tədris vəsaiti, həm də bu istiqamətdə elmi-tədqiqat işləri ilə məşğul olan elmi işçilər üçün metodik mənbədir. Monoqrafiyalarda işıqlandırılan "Rəqəmsal ampeloqrafiya" sahəsinin müvafiq metodikaları dünyada üzümçülüyün geniş yayıldığı ölkələrdə üzüm sortlarının əsas genetik əlamətlərinin və irsi dəyişkənlik xüsusiyyətlərinin öyrənilməsi, həmçinin adlarının kod və şifrələnməsi baxımından dəyərli sayılır. Dünya miqyasında üzümçülük üzrə elmi və praktiki əlaqələrin inkişafında, məqsədyönlü introduksiya işlərində, ayrı-ayrı sortlardan səmərəli istifadə olunmasında, elmi əlaqələrin genişləndirilməsində, üzüm sortları üzrə beynəlxalq elektron informasiya bazasının yaradılmasında, bir sözlə, beynəlxalq miqyasda üzümçülüyün genişləndirilməsində bu bölmə mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, bu əsərlər istehsal prosesində məqsədyönlü sort seçiminin düzgün aparılmasına, üzüm plantasiyalarının genişləndirilməsi işində yerli sortlardan daha çox istifadə olunmasına, istehsal prosesində əhalinin üzümdən alınan çoxçeşidli qida məhsulları ilə dolğun təmin edilməsinə, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin və maddi rifah halının yüksəldilməsinə müsbət təsir göstərir.

***Zeynal ƏKPƏROV,***
***AMEA-nın müxbir üzvü***

# Qarabağda salınan yollar bütün regionun gələcək yüksəlişinə hesablanıb

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı eləcə də Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoymuşdur. Bu yol isə başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometr olacaq. Dörd hərəkət zolaqlı yol boyunca avtomobil körpüləri tikiləcək.

Azərbaycanın tarixi ərazisi olan Hadrut yaşayış məntəqəsindən başlanan həmin yol işğaldan azad olunmuş digər bölgələri birləşdirəcək. Belə ki, Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndinədək uzanacaq. Mütəxəssislər bu yeni yolu strateji əhəmiyyət daşıyacağına görə yüksək dəyərləndirirlər. Çünki o, Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşəcək və praktik olaraq Zəngəzur dəhlizi vasitəsilə "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Yol dəhliz vasitəsilə həm də Azərbaycanın qərb hissəsində və Naxçıvanda fəaliyyət göstərən iş adamları arasında əlaqələrin qurulması baxımından vacibdir. Bu, qısa vaxtda müxtəlif məhsulların daşınmasına imkan yaradacaq. Beləliklə, bunun işğaldan azad olunan ərazilərimizin, Naxçıvan Muxtar Respublikasının və ümumiyyətlə, Azərbaycanın iqtisadiyyatına müsbət təsirləri olacaq.

Prezident İlham Əliyev sözügedən səfər zamanı xatırlatmışdır ki, təməli qoyulan yeni yollar bu qəbildən olan birinci layihələr deyil: "Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir - "Zəfər" yolu çəkilir. Eyni zamanda Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır."

Məlum olduğu kimi, işğaldan azad olunmuş bölgələrimizdə bir neçə istiqamətdə yeni yollar çəkilir. O cümlədən Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolunun tikintisi aparılır. Uzunluğu 29 kilometr olan bu yolun bərpası işlərinə Prezidentin tapşırığına əsasən, Tərtər rayonunun Suqovuşan qəsəbəsi və Talış kəndi işğaldan azad edilən kimi başlanıb. 9 metr enində asfalt-beton örtüyü olan, ümumi eni isə 12 metr təşkil edən avtomobil yolu artıq tikilib. Hazırda Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolunun Goranboy rayonunun Tapqaraqoyunlu kəndindən və Naftalan rayonunun Qaraqaşlı sanatoriyasından keçməklə Naftalan şəhərinədək davam etdirilməsi istiqamətində işlər aparılır. Bununla Tərtər rayonu ilə Goranboy və Naftalan rayonları arasında alternativ yeni avtomobil yolu bağlantısı yaradılacaq.

Həyata keçirilən ilkin infrastruktur layihələri sırasında Şuşa şəhərinə çəkilən yolun özünəməxsus yeri var. Belə ki, Şuşaya ənənəvi yollar hazırda bizim üçün o qədər də məqbul deyil. Bu gün oraya getmək üçün yeni yol çəkilişi mütləq lazımdır. Relyefin çətinliyinə və xüsusilə hələ havaların soyuq keçməsinə baxmayaraq, Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu inşa olunur.

Gerçəkləşəcək digər layihə Toğanalı - Kəlbəcər yoludur. Bu da çox çətin relyefdən keçən bir yoldur, çünki bəzi yerlərdə yüksəklik 3500 metrə çatır. İndiki hava şəraitində belə bir yüksəklikdə irəliləmək çətin olsa da, tunellərin tikintisi nəzərdə tutulur və bu layihə də icra edilir. Horadizdən Zəngilana, oradan Qubadlıya və Qubadlıdan Laçın rayonuna qədər yol çəkilişi nəzərdə tutulur. Toğanalıdan Kəlbəcərə çəkiləcək yol da Laçın rayonuna qədər davam etdiriləcək.

Xatırladaq ki, son 17 ilin hər birində ölkəmizdə ən azı 1000 kilometr yeni yol salınmış, yaxud əsaslı şəkildə yenidən qurulmuşdur. Yol tikintisi Azərbaycanın hər tərəfini əhatə etmişdir. Bu müddət ərzində çoxsaylı magistrallar çəkilmiş, eyni zamanda bölgələr və kəndlər arasında əlaqə yaradan yollar tikilmiş və ya tam təmir edilmişdir. İndi ən ucqar dağ kəndlərimizə də rahat yollarla çatmaq mümkündür. Prezident İlham Əliyev keçən ilin yekunlarına həsr olunmuş videoformat şəklində keçirilən müşavirədə bildirmişdir ki, yol layihələrimiz davamlıdır. Deməli, 2021-ci ildə yurdumuzun qoynunda yeni yollar açılacaq və nə xoş ki, onların xeyli hissəsi əzəli-əbədi torpaqlarımızda - Qarabağda çəkilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Sıfırdan biznes necə qurulur" mövzusunda vebinar keçirilib

Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsi və Gənclər İnkişaf Karyera Mərkəzinin Sumqayıt nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Sıfırdan biznes necə qurulur" mövzusunda gənclərlə vebinar formatda görüş keçirilib.

"Zoom" internet platformasında təşkil olunan görüşün məqsədi "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramından irəli gələn məsələlərin həlli, gənclərin sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi, bu sahədə biliklərə yiyələnmələri, həmçinin innovativ, startap ideyalarının reallaşdırılması istiqamətində maarifləndirmək və asudə vaxtlarının səmərəli təşkili idi.

Beynəlxalq dərəcəli təlimçi Ramil Süleymanov, eləcə də bank və biznes sektoru üzrə mütəxəssis Arzu Qafarlının konsultasiyası ilə keçirilən görüşdə gənclərin şəxsi və iş həyatında özünü reallaşdırması, düzgün biznes üçün bazarın araşdırılması, biznes planın tərtibi, komanda quruculuğu və işgüzar yanaşma mövzusunda fikir mübadiləsi aparılıb. Təlimdə iştirakçılara onlayn xidmətləri satın alan virtual proqramlara qoşulub, düzgün istifadə edərək gəlir əldə etmə kimi biliklər də aşılanıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın müdafiə naziri Novruz bayramı münasibətilə ordumuzun şəxsi heyətini təbrik edib

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla xəbər verir ki, nazir məktubda şəxsi heyətə ən səmimi təbriklərini çatdırıb, möhkəm cansağlığı, çətin və şərəfli xidmətdə uğurlar arzulayıb.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd olunan Novruz yazın gəlişindən, təbiətin oyanışından xəbər verir. Azərbaycan xalqı qədim zamanlardan müasir günümüzədək Novruz ənənələrini inamla qoruyub saxlayıb. Tariximizin ən sərt dönəmlərində belə xalqımızın Novruz bayramını özünəməxsus coşqu, sevinc, yüksək əhvali-ruhiyyə ilə qeyd etməsi də xalqımızın öz milli-mənəvi dəyərlərinə verdiyi ən böyük qiymətin bariz nümunəsidir.

Bildirilib ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin inamla davam etdirdiyi uğurlu siyasət nəticəsində müstəqil Azərbaycan Respublikasında vətəndaş həmrəyliyi əldə olunub, ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub. Respublika iqtisadiyyatının fasiləsiz inkişafı təmin olunub, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib. Dövlətimizin inkişafında prioritet istiqamətlərdən hesab edilən ordumuzun hərbi qüdrətinin gündən-günə artırılması məqsədilə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas tərkib hissələrindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət və ordu quruculuğu sahəsində görülən mühüm işlər sayəsində Azərbaycanın dünyada nüfuzu daha da artıb, xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatıb.

"Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ötən il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin törətdiyi təxribatlara qarşı rəşadətli Ordumuzun başladığı və 44 günlük Vətən müharibəsinə çevrilən uğurlu əks-hücum əməliyyatları zamanı 30 ilə yaxın düşmən işğalında qalan tarixi torpaqlarımız əsgər və zabitlərimizin göstərdiyi qəhrəmanlıqlar, fədakarlıq nümunələri sayəsində azad edildi. Müzəffər Ali Baş Komandanın qətiyyətli mövqeyi, dəmir iradəsi və ordumuzun gücü sayəsində Zəfər qazandıq. Bu gün xalqın, dövlətin və ordumuzun birliyi sayəsində işğaldan azad edilən tarixi torpaqlarımızda üçrəngli bayrağımız əzəmətlə, qürurla dalğalanır.

Hərbi anda sədaqətə, çətin və şərəfli hərbi xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm", - deyə təbrik məktubunda vurğulanıb.

Azərbaycanın suverenliyinin, müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən bütün şəhidlərimizin xatirəsini hər zaman olduğu kimi, Novruz bayramı ərəfəsində də dərin hörmət və ehtiramla yad edildiyini məktubda qeyd edən general-polkovnik Zakir Həsənov onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşları, əziz veteranları bayram münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb.




# 10 min nəfərədək şəxsi heyət, 100-dək zirehli texnika, 200-dək artilleriya qurğusu, 30-dək hərbi aviasiya

## Növbəti hərbi təlim Azərbaycan Ordusunun dünyanın ən güclüləri arasında olduğunu bir daha təsdiqlədi

*Əvvəli 1-ci səh.*

1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdi. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyası Azərbaycanın maraqlarına cavab verən qətnamə qəbul etmişdi. Prezident İlham Əliyevin uğurlu diplomatiyası nəticəsində Avropa İttifaqı ilə imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı ilə bağlı məsələlər əksini tapmışdı.

Bu illər ərzində mənəvi hazırlıq sahəsində böyük irəliləyişlər əldə edildi. Gənc nəsil vətənpərvər ruhda böyüyərək formalaşdı. Vətən müharibəsində döyüşənlərin əksəriyyəti Birinci Qarabağ müharibəsini görməsələr də, düşmənə nifrət hissi ilə yetişmişdilər. Odur ki, torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıq nümunələri yaratdılar.

### Azərbaycan Ordusu ən müasir imkanlara malik hərbi gücə çevrildi

Bəli, Azərbaycanın 44 günlük müharibədə qalib gəlməsinin əsas səbəbi Ermənistandan fərqli olaraq hər bir sahədə inkişafı, irəli getməsi, dövrün tələblərinə uyğun yüksəlişi və apardığı hazırlıq işləri idi. Ən böyük hazırlıq isə təbii ki, orduda həyata keçirildi. "Əlbəttə ki, ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir. Bu haqda çox danışmaq istəməzdim. Bir daha demək istəyirəm ki, bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi - 44 günlük müharibədə bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır", - deyə Prezident İlham Əliyev bildirib.

İndi XX əsr deyil, hətta texniki inkişafın elə bir mərhələsinə qədəm qoymuşuq ki, on il əvvəl meydana çıxan yeniliklər də bu günümüzlə ayaqlaşmır. Bu baxımdan Prezident İlham Əliyev ordumuzu ən müasir hərbi texnologiyalarla zənginləşdirdi. Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistandan fərqli olaraq tamamilə müasir döyüş imkanlarına malik bir hərbi gücə çevrilməsi istiqamətində davamlı iş aparıldı.

Təsadüfi deyil ki, hazırda Azərbaycanın silahlanmasında yer alan müasir döyüş vasitələri inkişaf etmiş dövlətlərin belə arsenalında yoxdur. Üstəlik, İlham Əliyev Azərbaycanın hərbi-sənaye kompleksini də formalaşdırıb və artıq neçə illərdir ki, müəyyən hərbi təyinatlı məhsullarla bağlı xarici asılılıq aradan qaldırılıb. 44 günlük müharibədə Azərbaycanın qələbəsini təmin edən əsas amillər hərbçilərimizin vətənpərvərliyi və ordumuzun yüksək döyüş qabiliyyəti oldu.

### Döyüş qabiliyyətini artıran hərbi təlimlər

Silahlı Qüvvələrdə qarşıya qoyulan ən əsas məsələlərdən biri olan döyüş qabiliyyətinin daim yüksəldilməsi üçün təkcə yeni hərbi texnikalar alınmır. Eyni zamanda mütəmadi olaraq keçirilən hərbi təlimlərdə müasir döyüş vərdişləri artırılır. Bu məsələ Ali Baş Komandan İlham Əliyevin xüsusilə nəzarətindədir. Təsdiq edilən plana əsasən, il ərzində bir neçə dəfə hərbi təlimlər keçirilir.

Xatırladaq ki, indiyədək keçirilən hərbi təlimlərdə qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin təyin olunan məntəqələrə çıxışı, idarə olunmasının təşkili, qarşılıqlı fəaliyyətinin yoxlanılması, müdafiənin təşkili, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi, mürəkkəb və dağlıq relyeflərdə hərbi əməliyyatların aparılması, silahların döyüş tətbiqi kimi vəzifələrin icrası üzrə silahlı qüvvələrimizin bütün bölmələrinin bacarıq və vərdişləri daha da təkmilləşdirilib. Belə təlimlər həm də silahlanmaya yeni qəbul olunan silah və texnikadan peşəkar istifadənin mənimsənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edib. Əldə olunan nəticələr göstərirdi ki, ordumuzun bütün bölmələri istənilən situasiyada qarşısında dayanan vəzifələri layiqincə icra etməyə qadirdir. Ona görə də təlimlərin hər biri ordumuzun Vətən müharibəsində apardığı əməliyyatların uğurla başa çatdırılmasında müstəsna rol oynadı.

Artıq Dağlıq Qarabağ problemi həll olunub, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Lakin heç bir halda arxayınlaşmaq olmaz. Bu baxımdan qoşunların 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun bu günlərdə keçirilən növbəti əməliyyat-taktiki təlimləri göstərdi ki, döyüş qabiliyyətinin gücləndirilməsi, şəxsi heyətin döyüş vərdişlərinin yüksəldilməsi hər zaman prioritet olaraq qalır.

### Prioritet - Vətən müharibəsində qazanılan təcrübə nəzərə alınmaqla peşəkarlığın artırılmasıdır

Budəfəki təlimə 10 min nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunmuşdu.

Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimlərdə əsas diqqət Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla şəxsi heyətin və hərbi idarəetmə orqanlarının peşəkarlıq səviyyəsinin artırılmasına, döyüş texnikasının və digər hərbi vasitələrin tətbiqi, o cümlədən qoşunların terrorçu dəstələr və qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və antiterror əməliyyatlarının həyata keçirilməsi üzrə təlim-döyüş tapşırıqlarının icra edilməsinə yönəldilib.

Mürəkkəb şəraitdə keçirilən təlimlərdə müxtəlif qoşun növləri arasında qarşılıqlı fəaliyyətin təşkili üzrə tapşırıqlar uğurla yerinə yetirilib, qoşunların idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilib.

Təlim rəhbərliyinin qiymətləndirməsinə əsasən, qoşunlar qarşıya qoyulan məqsədlərə tam nail olub. Şəxsi heyət döyüş əməliyyatlarının aparılması üzrə praktiki təcrübə əldə edib, həmçinin yüksək səhra vərdişləri nümayiş etdirib.

Yeni hərbi təlimlər müharibədəki zəfərdən sonra ordumuzun döyüş qabiliyyətini daha da yüksəldir. Azərbaycan Ordusunun təlimləri həm də Ermənistandakı revanşistlərə növbəti xəbərdarlıqdır. Belə ki, 10 noyabr Bəyanatına qarşı çıxan hər kəs dərhal dəmir yumruğun zərbəsini hiss edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

"Bakı Metropoliteni" QSC
Müxtəlif növ armatur yayma çeşidlərinin satın alınması məqsədilə
*təkliflər sorğusu keçirir*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 07 aprel 2021-ci il saat 15:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 15 aprel 2021-ci il saat 15:00-a qədər təqdim etməlidirlər.
Təkliflər sorğusu 16.04.2021-ci il saat 15:00-da M.Rəfili, 16 ünvanında yerləşən inzibati binada keçiriləcəkdir.
Maraqlanan şəxslər (+99412) 490-01-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
**e-mail: raufyusifov@metro.gov.az**

***Tender komissiyası***

"Bakı Metropoliteni" QSC
Müxtəlif növ rabitə, siqnal və güc kabellərinin satın alınması məqsədilə
*təkliflər sorğusu keçirir*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 07 aprel 2021-ci il saat 14:30-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 15 aprel 2021-ci il saat 14:30-a qədər təqdim etməlidirlər.
Təkliflər sorğusu 16.04.2021-ci il saat 14:30-da M.Rəfili, 16 ünvanında yerləşən inzibati binada keçiriləcəkdir.
Maraqlanan şəxslər (+99412) 490-01-01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
**e-mail: raufyusifov@metro.gov.az**

***Tender komissiyası***

B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 19 mart 2021-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına Ceyranbatan su anbarının suyunun emal olunması üçün membran texnologiyalı Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin ultrasüzgəc membranlarının satın alınması məqsədilə dərc edilmiş açıq tenderində ilkin sənədlərin qəbulu tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) mexaniki olaraq səhvən 05 may 2021-ci il saat 18:00 göstərilmişdir. İlkin sənədlərin qəbulu tarixi 05 may 2021-ci il saat 17:00 kimi qəbul olunsun.

***Tender komissiyası***

# Baş Prokurorluq və DİN Gəncədə törədilmiş qətl hadisəsi ilə bağlı birgə məlumat yayıb

Fevralın 19-da Gəncə şəhər sakini 2002-ci il təvəllüdlü Musayeva Pərvin Xəqani qızının itkin düşməsi ilə bağlı Gəncə şəhəri Nizami Rayon Polis İdarəsinə verilmiş məlumat əsasında aparılan araşdırma zamanı prokurorluq və polis əməkdaşlarının peşəkarlıqla həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin üstü "isti izlər"lə açılıb və itkin düşmüş Pərvin Musayevanın qəsdən öldürülməsi müəyyənləşdirilib.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, müvafiq ekspertizalar təyin edilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı 2001-ci il təvəllüdlü Cəfərov Sərdar Saləddin oğlunun fevralın 19-da özünə məxsus avtomobildə qısqanclıq zəminində aralarında yaranmış mübahisə zamanı Pərvin Musayevanı boğaraq öldürməsi və meyitini Gəncə şəhəri, Avtozavod qəsəbəsində yerləşən məişət tullantılarının atıldığı əraziyə atmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə) maddəsi ilə cinayət işi başlanıb. Sərdar Cəfərov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda iş üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

NORM SEMENT
sizi Novruz Bayramı münasibətilə təbrik edir,
hər birinizə möhkəm cansağlığı,
süfrələrinizə bol ruzi-bərəkət,
ölkəmizə əmin-amanlıq arzulayır!

NORM
ƏSL SEMENT



# Qarabağda yeni dövr başlayır

## İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizi inkişaf, əməkdaşlıq və təhlükəsizlik bölgəsinə çevirir

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti Şuşada və digər rayonlarda görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi. Həmçinin reallaşacaq müxtəlif layihələr barədə məlumat verərək bölgənin gələcək inkişaf perspektivlərinin istiqamətlərini göstərdi. İlham Əliyev Şuşadakı durumu göstərərək bir daha dünyaya mesaj ünvanladı. Dağıdılan tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, Vaqifin məqbərəsini, büstünü, Pənahəli xanın sarayını göstərərək erməni vəhşiliyini bir daha ifşa etdi.

İlham Əliyev tezliklə Vaqifin məqbərəsində bərpa işlərinin başlanacağını, əvvəlki görkəminin bərpa ediləcəyini bildirdi. Layihə Heydər Əliyev Fondu tərəfindən Mehriban Əliyevanın rəhbərliyi ilə icra ediləcək.

### Füzuli Hava Limanından İsa bulağına...

Bölgəmizin uzunmüddətli inkişafının və sabitliyin təmin edilməsində nəqliyyat layihələrinin xüsusi rolu var. Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilib. Bu göstəriciyə görə, Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq işğaldan azad edilmiş torpaqlarımızda nəqliyyat infrastrukturunun inkişafı təkcə Azərbaycan üçün deyil, bölgədə yerləşən bütün ölkələr üçün əlverişli imkanlar yaradacaq.

Yeni yolların inşası ilə Azərbaycan Türkiyə ilə birləşəcək. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq.

Martın 16-da Füzuli, Xocavənd rayonlarına səfəri zamanı Prezident bir daha dünyaya bəyan etdi ki, işğalçı Ermənistanın 30 il ərzində darmadağın etdiyi tarixi ərazilərini Azərbaycan qısa zamanda bərpa edib sülh-əmin-amanlıq mərkəzinə çevirir.

Hər dəfə yeni-yeni infrastrukturların açılışını edən İlham Əliyev bu dəfə Füzuli-Hadrut və Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Füzuli-Hadrut avtomobil yolu başlanğıcını "Zəfər" yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolu isə başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizində avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcək.

Bu yollar işğaldan azad edilmiş torpaqlarda icra edilən növbəti layihələrdir. İlk layihə ötən il noyabrın 16-da start götürüb. Böyük Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq Azərbaycan quruculuq işlərinə başlayıb. Həmin gün Füzuli və Cəbrayıl rayonlarına səfər edən Prezident Füzulidən Şuşa şəhərinə aparan yeni yolun təməlini qoyaraq bu hadisəni belə qiymətləndirmişdi: "Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir".

Bu il yanvarın 14-də isə Prezident Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoymuşdu. Bu dəfə Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxil idi. Yəni çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellər tikiləcək. Bu yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və buradan İsa bulağına yeni yol çəkiləcək.

Həmin gün təməli qoyulan Füzuli Beynəlxalq Hava Limanı isə bu il istifadəyə verilməlidir. Limanın fəaliyyətə başlaması işğaldan azad edilən digər rayon və şəhərlərə xarici turistlərin gəlməsi baxımından çox əhəmiyyətlidir. Füzulidə hava limanının inşa edilməsi Qarabağın incisi sayılan və mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərinə gəlmək istəyən xarici turistlər üçün əlverişli imkan yaradacaq.

Fevralın 14-də Prezident növbəti dəfə Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər edərək Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının işğaldan azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Yeni təməli qoyulan Füzuli-Hadrut avtomobil yolu başlanğıcını "Zəfər" yolundan götürür. Dörd zollaqlı, uzunluğu 13 km olacaq bu yolun üzərində bir neçə yerdə körpülər salınacaq. Bu yol Hadrut və ətraf ərazilərin inkişafına xidmət edəcək. Dördzolaqlı, uzunluğu 43 km olan Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun isə əhəmiyyəti ondan ibarətdir ki, bu yol son nəticədə Horadiz-Zəngilan, daha sonra isə Zəngəzura gedən yola bağlanacaq. Yaxın və orta perspektivdə regionun inkişafına böyük təsir göstərəcək. Füzuli Hava Limanı, Bərdə-Ağdam dəmiryol xətti və Horadiz-Şuşa avtomobil yolunun istifadəyə verilməsi bütün Qarabağ regionu, xüsusən də onun dağlıq bölgələri üçün iqtisadi sıçrayışa səbəb olacaq.

### Böyük Qələbə Azərbaycan qarşısında yeni perspektivlər açıb

Göründüyü kimi, Azərbaycan qısa zamanda böyük infrastruktur layihələrinin icrasına başlayıb. Bölgədə bir çox ölkələri birləşdirən nəqliyyat şəbəkəsi qurulur. Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Ermənistan da özünü normal apararsa, bu prosesdən faydalana bilər.

Martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XIV onlayn Zirvə toplantısında çıxışı zamanı İlham Əliyev həm qurumun üzvləri - Pakistan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanı iş birliyinə dəvət etdi, həm də məğlub Ermənistana növbəti mesajını ünvanladı. Əgər bu ölkə 10 noyabr Bəyannaməsinin şərtlərinə tam əməl edərsə, Dağlıq Qarabağda reallaşacaq layihələrə qoşula bilər.

Prezident İƏT üzvlərini Qarabağda reallaşdırılacaq layihələrdən faydalanmağa da çağırdı: "Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək və Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni bağlantı dəhlizi regionda nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edirik".

Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir. Ölkəmiz Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Bütün bunlar isə Azərbaycanın iqtisadi potensialını artırmaqdadır. Ona görə də Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Vətən müharibəsində qazandığımız Böyük Qələbə də ölkəmizin qarşısında tamamilə yeni perspektivlər açıb.

İlham Əliyevin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti təsdiq edir ki, tezliklə işğaldan azad edilmiş torpaqlarda həyat yenidən qaynayacaq, bu ərazilər çiçəklənəcək, Qarabağ təkcə ölkəmizin deyil, regionun ən inkişaf etmiş mərkəzlərindən birinə çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# ABŞ-Rusiya münasibətləri böhran mərhələsindədir

## İkitərəfli əlaqələr tamamilə pozula bilər

Dünyanın iki böyük nüvə dövləti - ABŞ və Rusiya arasında münasibətlər son vaxtlar pisləşmək istiqaməti götürüb. ABŞ-ın yeni Prezidenti Co Bayden səlahiyyətlərini icra etməyə başlayandan sonra Vaşinqton-Moskva əlaqələrinin gələcək inkişafı beynəlxalq ictimaiyyətdə xüsusi maraq doğururdu. Bu da səbəbsiz deyildi. ABŞ-ın eks-prezidenti Donald Trampın administrasiyası Rusiyaya münasibətdə sanksiyalar tətbiq etməyi başlıca silah kimi müəyyənləşdirmişdi. Moskvanın davamlı olaraq məruz qaldığı sanksiyalar iki ölkə arasında əlaqələri kritik həddə çatdırmışdı.



Heç demə, Prezident Bayden sələfi Trampdan qətiyyən geri qalmaq niyyətində deyilmiş. Budur Vaşinqton Moskvanı cəzalandırmaq estafetini davam etdirir. Srağagün Bayden administrasiyası Rusiyaya qarşı növbəti sərt addımlarını atdı. Martın 18-də qüvvəyə minmiş yeni sanksiyalar iki blokdan ibarətdir. Birinci blok Moskvaya qarşı ticarət sanksiyalarını əhatə edir və milli təhlükəsizliklə əlaqəli ixracatın məhdudlaşdırılmasını nəzərdə tutur. ABŞ Ticarət Nazirliyi qeyd etmişdir ki, sanksiyalar Rusiyanın kimyəvi silahdan istifadə etməsi ilə əlaqədar ittihamlar əsasında tətbiq olunur: "Ticarət Nazirliyi Rusiyanın kimyəvi silahlar sahəsində bədniyyətli fəaliyyət üçün istifadə oluna bilən Amerika məxfi texnologiyalarına çıxışına imkan verməməyə çalışır, çünki Rusiya hakimiyyət orqanları ölkə daxilində və xaricində müxaliflərə qarşı qadağan olunmuş sinirlərə təsir edən maddələrdən istifadə edərək Kimyəvi Silahlar Konvensiyası üzrə öhdəliklərini kobudcasına pozmuş, öz vətəndaşlarını və digər ölkələrin vətəndaşlarını ölümcül təhlükəyə məruz qoymuşdur". Başqa sözlə, milli təhlükəsizlik baxımından nəzarət altında olan malların ixracı lisenziyalarına baxılarkən rədd cavabı veriləcək, yəni ABŞ-dan Rusiyaya silah və müdafiə təyinatlı malların ixracı qadağan ediləcək. Eyni zamanda 2021-ci il sentyabrın 1-dək bir sıra məhsul kateqoriyaları, o cümlədən kosmos sahəsi ilə əlaqəli məhsullar üçün istisnalar mövcuddur.

ABŞ hesab edir ki, Moskvanın kimyəvi silahın tətbiqi ilə bağlı iki hadisədə əli var: birincisi, Rusiyada müxalif siyasətçi Aleksey Navalnının zəhərlənməsi, ikincisi, Böyük Britaniyada Sergey Skripal və onun qızının zəhərlənməsi.

Yeri gəlmişkən, qüvvəyə minmiş yeni sanksiyalar cari ayın əvvəllərində tətbiq olunmuş məhdudlaşdırıcı tədbirlərin davamıdır. O vaxt Rusiyaın doqquz şirkəti sanksiyaya məruz qalmışdır. Sanksiya siyahısında "Ximmed", "Femteko", "Interlab", "Labinvest", "Analit Products", "İntertek Instruments", "Farmkontrakt", "Rau Farm" və "Regionsnab" şirkətləri yer almışdır. Eyni zamanda kimya məhsullarının istehsalı ilə əlaqəli üç elmi mərkəz - Müdafiə Nazirliyinin 27-ci Elmi Mərkəzi və 33-cü Mərkəzi Elmi-Tədqiqat İnstitutu, habelə Dövlət Üzvi Kimya və Texnologiya Elmi-Tədqiqat İnstitutu sanksiyalara məruz qalmışdır.

Vaşinqtonun Moskvaya qarşı tətbiq etdiyi yeni sanksiyaların ikinci bloku ötən il ABŞ-da keçirilmiş prezident seçkilərinə müdaxilə ittihamları ilə bağlıdır. Rusiyanın 2020-ci il seçkilərinə müdaxiləsi ABŞ kəşfiyyatının yayımladığı hesabatda vurğulanmışdır. Hesabatda deyilirdi ki, Rusiya Prezidenti Vladimir Putin seçkilərin gedişində Co Baydenin və Demokratlar Partiyasının namizədliyini qaralamaq, ABŞ-ın eks-prezidenti Donald Trampı dəstəkləmək üçün əməliyyatlar keçirilməyə icazə vermişdir. Bundan başqa, Moskva "seçki prosesinə ictimai inamı sarsıtmağa və ABŞ-da ictimai-siyasi ixtilafları gücləndirməyə" çalışırdı. Hesabatda həmçinin iddia edilirdi ki, Tramp və onun ən yaxın müttəfiqləri Rusiyanın Baydenə qarşı dezinformasiya kampaniyasını açıq-aşkar dəstəkləyir, bu səylərdə iştirak edən Kremlə bağlı şəxslərlə görüşür və özlərinin qəsd nəzəriyyələrini irəli sürürdülər.

Bu sanksiya blokunun məzmunu hələlik açıqlanmamışdır və tezliklə ictimaiyyətə təqdim olunması nəzərdə tutulur. ABŞ administrasiyasının mətbuat katibi Cennifer Psaki bildirmişdir ki, Prezident Baydenin dediyi kimi, rusiyalılar öz hərəkətlərinə görə mütləq məsuliyyət daşıyacaqlar.

Gözlənildiyi kimi, Moskva ABŞ-ın yeni sanksiyalarına dərhal reaksiya vermişdir. Hələlik cavab sanksiyalarından söhbət getmir. Rusiya Xarici İşlər Nazirliyi ilk addım kimi səfir Anatoli Antonovu məsləhətləşmələr aparmaq üçün Vaşinqtondan geri çağırmışdır. Nazirliyin yaydığı bəyanatda deyilir ki, Rusiya-ABŞ münasibətləri kontekstində "nə etməli və hansı hərəkətlər etməli olduğumuzu" təhlil etmək üçün səfirlə məsləhətləşmələrə ehtiyac var: "Bizim üçün ən əsası Vaşinqtonun son illər çıxılmaz vəziyyətə saldığı Rusiya-Amerika əlaqələrini düzəltmək üçün yolların nə ola biləcəyini müəyyənləşdirməkdir".

Öz növbəsində, Rusiya Prezidenti Vladimir Putin Vaşinqtonla Moskva arasında əlaqələrin indiki vəziyyətinə münasibət bildirmişdir. O, qeyd etmişdir ki, Rusiya bütün dövlətlərlə, o cümlədən ABŞ-la əlaqələri inkişaf etdirəcək. Putin bəyan etmişdir ki, ABŞ əvvəl-axır Rusiya ilə hesablaşacaq, Rusiyanın maraqlarını nəzərə almalı olacaq.

Baş verən hadisələr göstərir ki, ABŞ-Rusiya münasibətləri son dərəcə həssas mərhələdən keçir. Müşahidəçilər ikitərəfli əlaqələrdə yaranmış vəziyyəti böhran kimi qiymətləndirirlər. Onların fikrincə, indiki şəraitdə Moskva ilə Vaşinqton arasında əməkdaşlığı davam etdirmək üçün hansısa təmas nöqtəsi axtarıb tapmaq praktiki olaraq mümkün deyil. Qarşılıqlı əlaqələrin tamamilə pozulacağı və davamlı qarşıdurmaya keçəcəyi istisna olunmur.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Azərbaycan xalqını




münasibətilə təbrik edir, hər bir ailəyə səadət və sevinc dolu günlər arzulayır!

SOCAR
SOCAR PETROLEUM QSC




# Tovuzda Novruz bayramı ilə əlaqədar şəhid ailələri ziyarət edilmişdir

Tovuz rayonunda şəhid ailələrinə diqqət və qayğıkeşlik göstərilir, onların arzu və istəkləri öyrənilir, həlli istiqamətində lazımi işlər görülür. Elə bu günlərdə - Novruz bayramı ərəfəsində rayon rəhbərliyi bir qrup şəhid ailəsini ziyarət etmişdir.



Qovlar şəhərində Xətai Həsənovun, Düz Cırdaxan kəndində Kamran Əsgərovun, Cəlilli kəndində İlqar Zeynallının, Aşağı Mülkülüdə Orxan Eminalıyevin, Xatınlıda Vüqar Əmrahovun, Qaraxanlıda Rövşən Vəlixanovun, Abulbəylidə Röyal Aslanovun, Emin Mahmudovun, Aşağı Öysüzlüdə Seymur Mehdiyevin, Fikrət Zeynallının, Yuxarı Öysüzlüdə Yusif Ələsgərovun, Vüqar Əkbərovun, Münasib Yusifovun, Elmar Əhmədovun, Əlibəylidə Sərxan Həsənovun, Anar Hüseynovun, Ağdam kəndində Elburus Yusifovun, Dondar Quşçuda Ruslan Quliyevin, Hüseyn Quliyevin, Əmrah Əliyevin, Aşağı Quşçuda Elvin Qurbanlının, Füzuli Süleymanovun, Həsrət Ələsgərovun, Ataş Aslanovun, Elburus Verdiyevin, Rəcəb Hüseynovun, Elçin Poladovun, Aran kəndində Vasif Heydərovun ailələri ziyarət olunmuş, onlara bayram sovqatı verilmişdir.

Ziyarət zamanı şəhidlərin xatirələri yad edilmiş, Azərbaycanın haqq işi uğrunda cəsurluq və mərdlik nümunəsi göstərdikləri diqqətə çatdırılmış, onların həyat yolunun bundan sonrakı nəsillərə örnək olduğu vurğulanmışdır.

Şəhidlərimizin döyüş yolundan söz açan valideynlər övladlarının qəhrəmanlığından qürur hissi keçirdiklərini, onlarla fəxr etdiklərini dilə gətirərək dövlət səviyyəsində şəhid ailələrinə göstərilən qayğıkeşlikdən, xüsusilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin şəhid ailələrinə diqqətindən razılıqlarını bildirmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Türkiyənin ACIBADEM Tibbi Şirkətlər Qrupu Naftalandakı sağlamlıq mərkəzləri ilə əməkdaşlıq edəcək

Naftalan Şəhər İcra Hakimiyyəti və Türkiyənin ACIBADEM Tibbi Şirkətlər Qrupunun nümyəndələri arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı görüş keçirilmişdir.



Naftalanda keçirilən görüşdə şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov qonaqlara şəhərin mövcud turizm potensialı haqqında ətraflı məlumat vermişdir. Diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyevin Naftalan kurortunun inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin uğurlu icrası nəticəsində şəhər özünün yeni inkişaf dövrünə qədəm qoymuşdur.

ACIBADEM Tibbi Şirkətlər Qrupunun Uluslararası İş Gəliştirmə sorumlusu Aytən Babazadə, şirkətlər qrupunun regional nümayəndəliyinin əməkdaşı Ramil Ələsgərov və Gəncə Destinasiya Menecmenti Təşkilatının rəhbəri Zaur Bayramov təbii Naftalan neftinin yüksək müalicəvi təsirlərə malik olduğunu və xəstəliklərdə istifadəsinin önəm daşıdığını qeyd etmişlər.

Sonra əməliyyat olunmuş xəstələrin gələcəkdə reabilitasiyasının Naftalanda keçirmələri barədə fikir mübadiləsi aparılmışdır. Gələcəkdə ACIBADEM Tibbi Şirkətlər Qrupu ilə Naftalan sağlamlıq mərkəzlərinin birgə əməkdaşlığı barədə təkliflər irəli sürülmüş və müzakirələr aparılmışdır. ACIBADEM-in və Naftalan sağlamlıq mərkəzlərinin yüksəkixtisaslı mütəxəssisləri ilə birgə "Naftalan neftinin əhəmiyyəti" mövzusunda fikir mübadiləsi aparılmasının əhəmiyyəti vurğulanmışdır.

Sonda qonaqlar "Garabag Resort & Spa" və "Naftalan Müalicə və Sağlamlıq Mərkəzi"ndə naftalan neftindən istifadə qaydaları və müalicə üsulları ilə tanış olmuşlar.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

# Masallıda Vətən müharibəsi iştirakçısı RİH-nin şöbə müdiri təyin edilib

Baş leytenant Qəşəm Hadıyev Masallı Rayon İcra Hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur.

1979-cu ildə Masallı rayonunun Şərəfə kəndində anadan olan Qəşəm Hadıyev 1985-1996-cı illərdə kənd tam orta məktəbində orta təhsil almış, 1997-2001-ci illərdə Azərbaycan Texniki Universitetinin Yerüstü nəqliyyat vasitələri və nəqliyyatın istismarı fakültəsini bakalavr dərəcəsi üzrə bitirmişdir. 2001-2003-cü illərdə leytenant kimi Azərbaycan Respublikası Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olmuşdur.

Əmək fəaliyyətinə 2007-ci ildə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında təlimatçı kimi başlamışdır. Sonra qısa müddətə Masallı Telekommunikasiya Qovşağında Texniki şöbənin rəisi işləmiş və yenidən 2014-cü ilədək Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında çalışmışdır. 2014-cü ildən Masallı Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi vəzifəsində işləmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda başlanan Vətən müharibəsi zamanı cəbhənin Ağdərə-Suqovuşan istiqamətlərində gedən döyüşlərdə iştirak edən Q.Hadıyev Prezidentin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Sülhə, mehribanlığa çağıran bayram

**Gecə-gündüzün bərabərləşdiyi, yaz fəslinin başlandığı gün ölkəmizdə ta qədim zamanlardan el şənlikləri ilə qeyd olunub. Novruz bayramı baharın ilk gününün, təzə ilin qarşılanmasıdır.**

Bu bayramın mahiyyəti, tarixi barədə müxtəlif fikirlər, mülahizələr irəli sürülüb. Tədqiqatçı Azad Nəbiyev qeyd edib ki, Azərbaycan xalqının çox qədim zamanlarda yaratdığı, milli yaddaşa yüksək mənəvi-əxlaqi dəyərlər toplumu kimi daxil olan böyük bayramlardan biri Novruzdur: "Əcdadlarımız ulu qaynaqlardan süzülüb gələn, yaddaşlara yoldaş olan bu bayramı bir-birindən oynaq, lətafətli nəğmələr, insanın ilkin töreniş atributları olan su, od, yel və torpaq görüşləri ilə bağlı silsilə ayin, etiqad, ənənə və mərasimlərlə zaman-zaman bəzəmişlər. Qərinələr və yüzilliklər dolabında bu nəğmə və mərasimlərin nəqşi pozulanı, bəzən unudulanı da, yeni-yeni ənənə və etiqadlarla cilalanıb ritmi səhv düşəni, yenidən düzülüb qoşulanı da olub. Ancaq xalq bayram təntənəsinin ahənginin pozulmasına yol verməmiş, onu özünün qüdrətli dünyasını əks etdirən yallılar, coşqun rəqslər, rəngarəng xalq oyunları, ibrətamiz meydan tamaşaları ilə bəzəmişdir".

Tədqiqatçıların araşdırmaları bu bayramın tarixinin çox qədim olduğunu təsdiq edir. Novruz bayramının mənşəyi, onunla bağlı əsatirlər, miflər qədimdir. Araşdırıcılar Novruz bayramının məhz Yaxın Şərqin qədim əkinçiliklə məşğul olan xalqları arasında meydana gəldiyini bildirirlər.

Folklorşünas alim Azad Nəbiyev qeyd edib ki, Azərbaycan mifologiyasının bizə gəlib çatan əsatirlərindən birində Novruzun bayram edilməsi daha erkən təsəvvürlərin mirası kimi yaddaşlara həkk edilib. Əsatirdə deyilir: "Oğuz oğlu zağada yaşayanda qışdan yaman qorxardı. Ona görə də ilin üç fəslində qışa tədarük görər, dünyanın naz-nemətini zağaya yığıb gətirərdi. Bir il qış uzun çəkdi. Oğuz oğlunun azuqəsi qurtardı. Çarəsiz qalan Oğuz oğlu Böyük çillənin otuzuncu günü zağadan bayıra çıxdı ki, yeməyə bir şey tapıb gətirsin. Nə qədər gəzdi, dolandı, əli-ayağı dondu - kor-peşman evə qayıdanda yolda bir qurd balasına rast gəldi.

- Oğuz oğlu, bu qarda-boranda haradan gəlirsən, - deyə qurd balası soruşdu. Oğuz oğlu başına gələn əhvalatı danışdı. İlin aylarından gileyləndi. Dedi ki, elə ay var yaxşı dolanırıq, elə ay var, acından qırılırıq. Ayları təriflədi, ayları yamanladı.

Qurd balası dedi:

- Ey Oğuz oğlu, qabaqdakı yolayrıcında sən bir sürü qoyun, bir qucaq sünbül, bir cəhrə, bir də əl dəyirmanı görəcəksən. Onları alıb zağana apararsan. Qoyunun birini kəsib ətini yeyərsən, yunundan cəhrəndə ip əyirər, özünə paltar tikərsən, dərisini əyninə geyərsən. Sünbülün dənini də əl dəyirmanında çəkər, unundan çörək bişirərsən. Yaza çıxarsan. Ancaq sənə verdiyim əmanətlərdən gərək muğayat olasan. Sünbülü və qoyunu gərək özün artırasan. Quzuları əlinin üstündə saxlayıb böyüdərsən. Sünbülün dənini torpağa səpib onu alnının təri ilə suvararsan. Dediklərimə əməl edə bilməsən, yaşamaq sənin üçün çətin olacaq.

Oğuz oğlu yol ayrıcına gəldi, qurd balasının dediklərini götürüb zağaya gətirdi. Qışı kefnən dolandı. Yazda sürünü dağlara yaydı, sünbülün dənini torpağa səpib gecə-gündüz sürülərin, sarı sünbülün qulluğunda dayandı. Oğuz oğluna bir bolluq üz verdi ki, gəl görəsən. O gündən Oğuz oğlu bütün ili işlədi. Qurd balasına rast gəldiyi günü bayram kimi keçirmək üçün hazırlığa başladı".

Novruzu oğuzlar yaşadığı geniş ərazilərdə bayram etməyə başladılar. Bu bayram təntənəsi yaxın-uzaq ellərə yayıldı. İlk yazılı mənbədə Novruz bayramının eramızdan əvvəl 505-ci ildə yarandığı qeyd olunub. Mənbələrdə Qədim Vavilonada bu bayramın nisanın (mart, aprel) 21-ci günü qeyd olunduğu və 12 gün davam etdiyi bildirilib. Bayram günlərinin hər birinin öz mərasim və ayini var idi.

Novruz bayramını islam dini ilə əlaqələndirməyə çalışanlar da olub. Ancaq islam xadimlərinin bu bayramı dini mahiyyətdə təqdim etmək cəhdlərini tarixi mənbələr boşa çıxarıb. Folklorşünas alim Azad Nəbiyev yazıb ki, "Avesta"da Novruzun zərdüştlükdən çox-çox əvvəllərdə Muğanda geniş şəkildə bayram edildiyi qeyd olunur, bolluğa, qüdsiyyətə sitayiş bayramı hesab olunur.

Novruzun islamdan əvvəl də qeyd olunmasını Nizami Gəncəvi, Sədi Şirazi, Hafiz Şirazi, Ömər Xəyyam, Firdovsi, Rudəki, Əbu Əli ibn Sina və başqaları da təsdiq ediblər. Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan bəhs edərkən tədqiqatçılar Nizamülmülkün "Siyasətnamə", Ömər Xəyyamın "Novruznamə" və başqa əsərləri xüsusi diqqətə çatdırırlar. Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində İsgəndər Bərdə hökmdarı Nüşabəyə Novruz bayramı qonaq gəlir. Əlişir Nəvainin "Səddi-İsgəndəri" əsərində bizim eradan 350 il əvvəl Novruzun xalq arasında böyük şənliklərlə keçirildiyi qeyd olunub.

Orta əsr müəllifləri Şərq ölkələrində islam dini yayıldıqdan sonra da Novruz bayramında yaz ənənələrinin, əkinçilik təqvimi etiqadlarının möhkəm yer tutduğunu nəzərə çatdırıblar. XI əsrdə Əbu Reyhan əl-Biruni Novruz bayramı haqqında müxtəlif rəvayətlərdən, onun yaranması səbəblərindən, bu bayram münasibətilə xalq arasında yayılmış adət-ənənələrdən bəhs edib. O vurğulayıb ki, Novruz bayramı təbiətin oyanması, əkinçilik təsərrüfatının başlanması ilə bağlı əsl dünyəvi bayramdır.

Yazın gəlişi ilə əlaqədar keçirilən kütləvi xalq bayramı kimi bəhs edilən əsərlərdən biri də Nizamülmülkün "Siyasətnamə"sidir. Novruzun gəlişi klassik Şərq, həmçinin Azərbaycan poeziyasında geniş yayılmış "Bahariyyə" adlı lirik şeirlərdə də tərənnüm edilib.

Bu bayramın mahiyyətində sülhə, mehribanlığa çağırış var. Novruz bayramında əcdadların ən ülvi, humanist dəyərləri, adət-ənənələri yenidən və daha dərindən xatırlanır, dünyasını dəyişmiş doğmaların ruhu yad edilir. Böyüklərin, doğmaların ziyarətinə gedilir. Novruz etiqadları insanları bəd əməllərdən, yamanlıqdan, ədalətsizlikdən uzaq qaçmağa, təbiətlə birlikdə mənən təmizlənməyə səsləyir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




● Xalq bayramı



# Milli ruhumuzu yaşadan bayram

Əvvəli 1-ci səh.

Xalq mövcudluğunu o zaman qoruya bilir ki, özünü qədim əcdadlarla mənəvi əlaqədə hiss edə bilsin. O ruhu daim duysun. Minilliklərin soraqlarını, adət-ənənəsini, bir sözlə, özünəməxsusluğunu mühafizə edib saxlamağı bacarsın. Belədə həmin millət tarixin aşırımlarında, təlatümlü dolanbaclarında sarsılmır, özünü itirmir. Novruzda qədimliyimizin bütün çalarları əksini tapıb. Xalqımız bir çox özünəməxsusluqlarını bu bayramda axtarıb. Tarixi keçmişimizlə bağlı xeyli suallara bu bayramın adət-ənənələrində, dəyişməz atributlarında cavablar görüb. Ona görə də Azərbaycan xalqı Novruz bayramının hətta qadağan olunduğu vaxtlarda belə onu müxtəlif formalarda keçirib. Bu qədim el bayramına sevgisini qoruyaraq daim nümayiş etdirib. Əslində, xalqımızın əsrlərboyu ağır keşməkeşlərə, istilalara, sərt yaşayış şərtlərinə rəğmən, yenə də öz milli kimliyini mühafizə edə bilməsinə görə bu cür dəyərlərimizə borcluyuq. Məhz Novruz kimi mənəvi dəyərlərimizin gücü ilə xalqın milli yaddaşı itməyib. Təsirlər qarşısında aşınması mümkün olmayıb. Əksinə, daha da güclənib, möhkəmlənib, nəsillərdən-nəsillərə ötürülüb. Elmi cəhətdən öyrənilib. Bu bayrama aid folklor nümunələri sənədləşdirilib. Novruzun bir çox simvolları mədəniyyət və incəsənətimizin qiymətli incilərinə çevrilib. Bizi bütün dünyada tanıdan atributlar sırasında qərarlaşdırıb.

## Dəyərlərimizə həssas münasibət

Novruz sovetlər birliyi dövründə dini bayram kimi qadağalar altında olub. Buna baxmayaraq, Ulu Öndər Heydər Əliyev bu bayramın xalq arasında sevilərək yaşadılmasını təmin etmişdir. Onun tapşırığı ilə folklorşünaslıq sahəsində aparılan elmi tədqiqatlarda bu bayramın ideoloji-siyasi təsiri önə çəkilmişdir. Ötən əsrin 70-ci illərində Novruz bayramı ilk dəfə olaraq Heydər Əliyevin xeyir-duası ilə rəsmi şəkildə qeyd olunmuş, televiziya ilə yayımlanmışdır. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəltmiş, zəngin irsimizə, tariximizə böyük məhəbbət yaratmış, milli özünüdərki gücləndirmişdir. Novruz adət-ənənələri o dövrdə bədii əsərlərdə, filmlərimizdə özünə yer tapmışdır. Hər dəfə "Dəli Kür" filmini seyr edərkən Novruz bayramının necə təbliğ olunduğunu görürük. Xalqın mədəni dəyərlərini, adət-ənənələrini, folklorunu, ədəbiyyatını təbliğ edən əsərlər çoxalmış, ədəbi irsimizi tərənnüm edən "Bulaq", "Klassik irsimizdən" kimi verilişlər ortaya çıxmış, ana dilinin təbliği istiqamətində real addımlar atılmışdır. Məhz müdrik rəhbərin qayğısı ilə həmin illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub. Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir", - deyən Ulu Öndər bu bayramı milli ideologiyamızın ana sütunu kimi dəyərləndirmiş və onu əbədiləşdirmişdir. Bu, əslində, Ümummilli Lider tərəfindən atılan möhtəşəm bir addım idi.

Adətən, xalqların qərinələrboyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını sağlam ruhda qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya qüdrətli şəxsiyyətlərin üzərinə düşür. Azərbaycanda bu ağır və məsuliyyətli işi məhz Ulu Öndər Heydər Əliyev üzərinə götürərək hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin böyük himayədarı olmuşdur. Nitqlərində xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın mənəvi dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın aktual problemlərindən birinə çevirmişdir. Problemi böyüdən başlıca amil budur ki, inteqrasiyalar bir çox hallarda əsrlərin mirasına - milli-mənəvi dəyərlərə qarşı yönəlir. Ümummilli Liderin böyüklüyü də məhz bu təhdidi düzgün qiymətləndirməsi, onun potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır. Ulu Öndərin vətəninə, xalqına, millətinə, ənənələrinə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrilmiş, əslində, xalqın genetik yaddaşını qorumuşdur. Onun milli düşüncə sisteminin bədii-poetik modeli olan Azərbaycan folklorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər böyük rəhbərin dəyərlərimizə həssas münasibətindən irəli gəlməklə yanaşı, ictimai şüurun oyanmasına da xidmət etmişdir. Təbii ki, görülən işlər sadəcə qayğı olmaqla məhdudlaşa bilməz - bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi kimi qorunaraq gələcək nəsillərə əmanət edilməsi, azərbaycanlı məfkurəsinin, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşünülmüş, məqsədyönlü addımlar idi.

## Gələcək nəsillərə əmanət

Bu gün xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm nailiyyətləri sırasındadır. Dövlət başçısı tarixi-mədəni irsimizin yaşadılmasına və adət-ənənələrimizin qorunmasına xüsusi qayğı ilə yanaşaraq bu məqsədlə son illərdə mühüm addımlar atıb, sərəncamlar imzalayıb. Bütün bunlar Prezident İlham Əliyevin xalqımızın dəyərlərinə son dərəcə bağlı olduğunu, onlara hörmət və ehtiramla yanaşdığını təsdiqləyir. Bu sıradan da böyük bayramımız olan Novruzun yüksək səviyyədə qeyd olunmasına, mütərəqqi adət-ənənələrin cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapmasına daim çalışır. Hər il Novruz bayramı münasibətilə xalqımıza təbrik ünvanlayan dövlət başçısı vətəndaşlarımıza xoş arzu və niyyətlərini bildirir. Yüksək mənəviyyat xəzinəsi sayılan Bahar bayramının milli mədəni sərvətlərimizin zənginliyi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini dolğun şəkildə ifadə edir. Novruz böyük mənəvi gücə malikdir, insanlar arasında qardaşlıq duyğularını möhkəmləndirir, cəmiyyətdə əmin-amanlığın və xoş münasibətlərin bərqərar olmasına zəmin yaradır. Sürətlə dəyişən dünyamızda qloballaşma proseslərinin geniş vüsət aldığı bir zamanda Novruz bayramı daşıdığı bütün məna və rəmzləri ilə xalqımızın tarixi-mədəni irsinə son dərəcə bağlı olduğunu parlaq nümayiş etdirir.

Dövlət başçısı bütün təbriklərində Novruz bayramını əcdadlarımızın indiki nəsillərə misilsiz yadigarı adlandırır və qeyd edir ki, yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir: "Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir". Ən ali keyfiyyətləri özündə cəmləşdirən bayram kimi Novruzun UNESCO tərəfindən bəşəriyyətin mədəni irs nümunələri siyahısına daxil edilməsi isə təqdirəlayiq haldır.

## Qeyri-maddi mədəni irsimiz

Novruz birlik, bərabərlik bayramıdır. Böyük bir coğrafiyada yaşayan xalqları öz işığında birləşdirən yüksək dəyərdir. Bu bayram Azərbaycanla yanaşı, bütün Şərqdə, xüsusilə Mərkəzi Asiyada, İranda, Pakistanda, Türkiyədə, Qazaxıstanda, Tacikistanda, Özbəkistanda, Türkmənistanda, Qırğızıstanda böyük coşqu ilə keçirilir.

Novruz bayramının bütün dünyada Azərbaycanın zəngin irsi kimi tanıdılması və UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilməsi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fədakar, vətənpərvər fəaliyyəti nəticəsində mümkün olmuşdur. Heydər Əliyev Fondu Novruz günlərində aztəminatlı ailələrə bayram sovqatları paylayır, sosial yardıma ehtiyacı olan minlərlə şəxs üçün bayram süfrələri təşkil edir, sağlamlıq imkanları məhdud uşaqlarla görüşlər təşkil edir, xüsusi qayğıya ehtiyacı olanlara və kimsəsizlərə yardımlar edir, şəhid ailələrini bayram hədiyyələri ilə sevindirir.

Azərbaycanın təşəbbüsü ilə 2010-cu ildə BMT-nin 21 martı Beynəlxalq Novruz Günü elan etməsi bu bayramın bəşəri miqyasda roluna yüksək önəm verildiyinə dəlalət edir. Bütün bunlar ilk baxışdan bəlkə də adi faktlar kimi görünə bilər. Amma böyük zəhmət hesabına başa gəlmiş bu mədəni nailiyyətin çox böyük əhəmiyyəti var. İlk növbədə, Novruz bayramı bəşəri mənəvi abidə kimi əbədiyyət qazanmışdır. Bu, dünya miqyasında daim böyük maraq doğurması, öyrənilməsi, təbliği deməkdir. Eyni zamanda xalqımızın və ümumən, Şərq xalqlarının Novruz kimi mənəvi sərvətinə bütün dünyanın verdiyi qiymətdir.

## Əzəl başlanğıca qayıdış

Bu bayramın "yeni ruzi", "yeni zəhmət" mövsümü kimi qəbul olunması xalqımızın əməksevərliyindən, halal zəhmətə bağlılığından irəli gəlir. Düşüncəyə görə, Novruzda təbiət oyanır. Torpaq Günəşin şüası ilə isinir. Bol bəhrəli yeni bir mövsümə hazırlaşır. Həyat yenilənir. İnsanın ruhu təzələnir. Hər kəs bu bayramda, Novruz çərşənbələrində gələcəklə bağlı arzular tutur. Onların həyata keçəcəyinə qəlbən inanır.

Qeydlərimizin əvvəlində də xatırlatdığımız kimi, Novruzla bağlı görüşlər ulu əcdadın, ilkin insanın yaranmasında iştirak edən su, od, yel və torpaq inancı ilə bilavasitə əlaqədardır. Bu, törəniş düşüncəsidir. Belə bir düşüncə Novruzla bağlı mərasim folklorunda aydın şəkildə öz əksini tapıb. Törəniş düşüncəsini formalaşdıran ünsürlərin çoxuna Novruzun silsilə miflərində, nəğmələrində təsadüf edə bilərik. Novruz çərşənbələrinin hər birində insana uğur və xoşbəxtlik gətirən rəmzləri, ümid və inamı görürük. Bu mənada Novruz insanın öz başlanğıcına qayıdışıdır. O, qəlbən inanır ki, öz xoşbəxtliyini, uğura doğru yolun başlanğıcını həyatı əmələ gətirmiş dörd ünsürdə tapa bilər. Buna görə Novruzun dörd çərşənbəsinin hər biri bu ünsürlərlə bağlıdır.

İlk çərşənbə Su çərşənbəsidir. Bu çərşənbə baharın hərarətli nəfəsi duyulduqca, torpaq isindikcə, qarlar-buzlar əriyib bulaqlara, çaylara qarışdıqca daha da gurlaşan axar suları simvolizə edir. Axar su torpağa bərəkət gətirir. Həyatı saflaşdırıb duruldur. İnsan öz düşüncələrini, niyyətlərini, mənəvi dünyasını da axar suya çəkir.

İkincisi Od çərşənbəsidir. Ulu əcdadlarımıza aydın idi ki, üzü Bahara doğru Günəş yavaş-yavaş torpağı qızdırır, onu əkin üçün hazırlayır, bərəkətləndirir. Onlar oda insanın ötən dövrlə bağlı sıxıntılarını külə çevirən, torpaqla birgə ağırlığını-uğurluğunu götürən güc kimi baxardılar. Od çərşənbəsində tonqallar qalayardılar. Müxtəlif nəğmələrlə, rituallarla tonqalın üstündən atlanardılar. Bütün bunlar günümüzə qədər davam edir. İnsanın qədimlərdən üzübəri tonqaldan atlanması onun yaşamağa inamını, həyatındakı qayğılardan qurtuluşuna əminliyini ifadə edir.

Novruzun üçüncü çərşənbəsi Yeldir. Yel həyatımızda baş verən dəyişikliklərin sorağıdır. Təbiətin canlanmasının əlamətidir.

Dördüncü çərşənbə isə Torpaq çərşənbəsidir. Bu çərşənbə artıq su ilə yumşalan, Günəşin hərarəti ilə isidilən torpağın əkilib-becərilməyə hazırlığına dəlalət edir. Bu çərşənbə insana əkib becərmək üçün hazırlığını görmək, əkinçi əlinin sığalını gözləyən torpağın bərəkətindən faydalanmaq üçün bir çağırışdır.

Novruz həm də xeyrin şər üzərində qələbəsini simvollaşdırır. Biz ötən il bu simvolu həyatımızda, Zəfər tariximizdə yaşadıq. 44 günlük Vətən savaşımız nəticəsində Azərbaycan tarixi ədaləti bərpa etdi. Düşməni illərdir işğal altında saxladığı torpaqlarımızdan qovduq. Xeyir şər üzərində qələbə qazandı. Hər zaman qəlbimizdə yaşayan ümid, qalibiyyət əzmi, yenilik ruhu, haqqa-ədalətə inam hesabına Azərbaycan ən böyük arzusuna çatdı.

Bu, bizə Novruzun təlqin etdiyi mənəvi keyfiyyətlərdir. Azərbaycan xalqı bu keyfiyyətləri, dəyərləri hər zaman yaşadacaq və bütün dünyada xoş bir nümunə yaradacaq.

Novruz bayramınız mübarək!

***İradə ƏLİYEVA, "Azərbaycan"***

## Yaz günü - Novruz günü

Bu gün yaşıd olur gündüzlə gecə,
Dağa duman çöküb, çən yeridikcə,
Dərin dərələrdə sel daşan gündür
Uca zirvələrdə
Qar əridikcə.
Damlalar dəryaya qarışan gündür,
Bu gün yerin, göyün öz sevinci var.
Gözünü açdıqca günəşli bahar,
Sözlər şəfəqlərdən qamaşan gündür.
Uzaq üfüqdəki soyuq ulduzlar
Bu gün isti-isti sayrışan gündür.
Gəlin, salamlayaq doğma baharı
Ana yurdumuzun
Ana qolları
Baharın qoynuna sarışan gündür.
Odlar torpağının gur tonqalları
Yerin ürəyitək alışan gündür.
Çaylar arzu kimi aşıb-daşanda,
Həsrətli torpaqla yaz qovuşanda
Yer göyə
Göy yerə
Yaraşan gündür.
Təbiət sevgidən söhbət açanda,
Küsmüş sevgililər barışan gündür.
Durnalar vətənə dönür qürbətdən.
Üfüqlərin donu mavi xələtdən.
Köksündə günəşi
Zər nişan günüdür.
Bu gündən, sabahdan, əbədiyyətdən
Mehriban-mehriban danışan gündür.

***Nəbi XƏZRİ***

● Mərasimlər

# Novruz gəlib - yaz gəlib

**Novruz bayramı Azərbaycan xalqının milli düşüncəsini və ruhunu özündə əks etdirir. Bu bayramda icra olunan ayinlər daim musiqi sədaları altında rəqslərlə müşayiət olunub. Xalq arasında Novruz günləri ilə bağlı çoxlu bayatı, mahnı, rəqs kimi fərqli fərdi və kütləvi sənət nümunələri yaranıb.**



Aşıqlar, xanəndələr, xalq musiqisi ifaçıları, hətta, adi insanlar da bu bayramı müxtəlif musiqi sədaları altında keçiriblər. Bir sıra bəstəkarlar tərəfindən bahar mövzulu əsərlər yaranıb ki, onların hər birində Novruz ruhu yaşadılıb.

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti Ariz AbdulƏliyevin sözlərinə görə, Orta əsrlərin klassik poeziyasında baharı vəsf edən, Novruzun gəlişinə həsr olunan şeirlər yazılıb və tədqiqatçılar onları "bahariyyə" adlandırıblar: "O da məlumdur ki, Orta əsrlərdə Novruza həsr olunan şeirlərə, poemalara, fəlsəfi-etik əsərlərə bəzən müəlliflərin özü tərəfindən "Novruznamə" adı verilmişdir. Habelə ədəbiyyatla yanaşı, qədim xalq musiqisi nümunələrində, Orta əsrlərin musiqi sənətində də Novruz ənənələri, mövzuları və atributları geniş bədii təcəssümünü tapıb. Fikrimizcə, "Novruz və musiqi" məsələsinə iki aspektdə baxılması daha uyğun görünür: musiqi Novruz bayramında və ənənələrində, Novruz və bahar mövzuları musiqidə..."

Azərbaycan bəstəkarlarının yaradıcılığında Novruz mövzusu daim aktuallığı ilə seçilib. Bildiyimiz kimi, Üzeyir bəy Hacıbəylinin ötən əsrin əvvəllərində yazdığı "Bahar nəğməsi" əsəri Novruza həsr olunub. Bəstəkar Məmməd Quliyev "Aldanmış ulduzlar" operasına Novruz bayramı ilə bağlı zurna və nağaranın da iştirakı ilə xalq səhnələri daxil edib. Bu mövzudakı irihəcmli əsərlər sırasında Vasif Adıgözəlovun dördhissəli "Novruzum" kantatasını da əlavə edə bilərik. "Azərbaycan", "Səməni", "Kosa", "Novruzum" hissələrindən ibarət əsər solist, xor və simfonik orkestr üçün yazılıb.

Elnarə Dadaşovanın "İlk bahar", Abdulla Şaiqin sözlərinə yazdığı "Uşaq albomu" mahnı silsiləsində də Novruz mövzusunda nəğmələr var. Müəllifin "Bahar şərqisi" də məhz baharın tərənnümüdür. Oqtay Kazımının bir neçə şairin sözlərinə bəstələdiyi "Böyük bayram", "Bayramınız mübarək", "Bayram olsun", "Bahar çağı", "Bahar təranəsi", "Bakının baharı" adlı silsilə mahnıları, xüsusən Ramiz Heydərin "Bahar bayramı" rədifli şeirinə bəstələnən musiqi xüsusilə məşhurdur. Bu siyahıya Fikrət Əmirovun dillər əzbərinə çevrilən "Gülür ellər", Ramiz Mirişlinin "Bayram axşamlarında", Cavanşir Quliyevin "Novruz gəlir, yaz gəlir" kimi mahnıları nəinki Novruz bayramında, əslində, illər boyu öz populyarlığını qoruyub saxlayan nəğmələrdir.

Novruz bayramının mahnı nümunələri sırasında Ağabacı Rzayevanın, Hökumə Nəcəfovanın, Oqtay Zülfüqarovun, Tofiq Əhmədovun, Bəxtiyar Kərimovun da imzası olan əsərlər çoxdur. Bəstəkar Mehriban Əhmədovanın Fikrət Qocanın sözlərinə yazdığı "Bahar nəğməsi" və ya "Bu gün şən bayramıdır ellərin" mahnısını bilməyən az adam tapılar.

# Ruhun qidası - rəqslər

**Milli bayramımız olan Novruzun da tarixi rəqslərimizlə eyni dövrə təsadüf edir. Qayaüstü təsvirlərdə rəqsin daha uzunömürlü olması öz ifadəsini və təsdiqini tapıb. Rəqsin ən qədim növü "Yallı"dır. Çünki xalq məişətinin qədim adətlərini özündə ehtiva etdirən "Yallı" hesab olunur. Həmçinin "Cəngi", "Ovçular rəqsi" də qədimiliyi, milli mental dəyərlərimizin qorunub saxlanılması baxımından bu qəbildəndir.**




Xalq məişətindəki ənənələr formalaşdıqca rəqslərin bir sıra növləri meydana gəlməyə başlayıb. Bunların toy, el şənlikləri, bayram mərasimləri olmaqla, çeşidli növləri var. Xüsusən də toy adətləri, Novruz bayramı şənliklərində ifa edilən rəqslər xalq arasında daha məşhurdur. "Novruz bayramı", "Səməni rəqsi" sırf bayram şənlikləri üçündür. "Qaytağı", "Qoçəli", "Qazağı", "Uzundərə" ən populyar rəqslərdən hesab olunur.

Rəqslər bəzən ifa tərzinə görə qadın və kişi üçün iki yerə ayrılır. "İnnabı", "Mirzeyi", "Cəngi" və s. kimi rəqs nümunələri kişilər üçün nəzərdə tutulub. Qadınlar arasında daha çox məşhur olan rəqslər isə "Haxışta", "Halay", "Nəlbəki" və s. sayılır. "Haxışta" rəqs növünün vətəni Naxçıvandır. Bu rəqsdə əsasən Naxçıvanın yerli adət-ənənəsi əks olunur.

Azərbaycan xalq adət-ənənələrinin zənginliyi onun rəqslərini bədii cəhətdən bir neçə növə bölür. Lirik, məzəli, idman və başqaları rəqslərin çeşidli növlərindən sayılır. "Vağzalı", "Uzundərə", "Naz eləmə", "Turacı" lirik, "Qıtqılda", "Məzhəkəli rəqs" məzəli rəqs növlərinə daxil edilirlər. Qəhrəmanlıq, çeviklik kimi keyfiyyətləri özündə cəm edən "Cəngi", "Qılıncla rəqs" və başqaları idman rəqslərinə aiddir.

# Meydan tamaşaları

**Azərbaycanda ənənəvi xalq oyunları və meydan tamaşalarının sorağı şifahi xalq ədəbiyyatından gəlir. Xalqımızın özünün yaşı qədər olan bu tamaşaların özəlliyi ondadır ki, onlar genetik olaraq qandan-qana hopur, iliklərə işləyir, ilkinliyini qoruyub saxlayır və akademik teatrın bünövrəsi sayılır.**



Filologiya üzrə fəlsəfə doktoru Nailə Əskər bununla bağlı qeyd edir ki, "İslam coğrafiyası və Azərbaycanda oyunlar" adlı kitabında bu məsələyə geniş yer ayırıb: "Meydan tamaşaları musiqi, rəqs, məzhəkə, nəqletmə, yarışma və başqa ünsürlərdən yaranıb. Açıq havada, şəhər meydanlarında, kəndlərdə geniş sahələrdə, karvansaralarda göstərilən meydan tamaşaları ənənəvi xalq teatrıdır. Tamaşaçılarla əhatələnmiş sahədə, meydanda oynanıldığı üçün ona "orta oyunu", yaxud "meydan tamaşaları" deyilib. "Meydan tamaşaları" termini altında əsasən Azərbaycanda oynanılan təhkiyəli, süjetli xalq oyunları nəzərdə tutulur. Xalqın özü qədər qədim olan, oyunçu və tamaşaçı arasında səmimi münasibətlər şəraitində göstərilən bu tamaşalar masqarabazlar, nağılçılar, aşıqlar, məzhəkəçilər, kukla oyunçuları tərəfindən inkişaf etdirilərək, ənənəvi xalq tamaşalarının özəyini yaradıb".

Xalq arasında çox qədimdən yaranan "Motal-motal", "Qurd basdı", "Çövkən", "Cızıq turnası", "Gizlənpaç" (gizlən, qaç), "Oğru-oğru", "Şuma qədər", "Aşıq-aşıq", "Qoz-qoz", "Pulpula", "Zorxana", "Sino", "Mil", "Qəpəq", "Fincan-fincan", "Bənövşə", "Dirədöymə", "Çalabaşı", "Yelləncək", "Maral oyunu", "Kilimarası" və s. oyunlarında həm uşaqlar, həm də böyüklər həvəslə iştirak edərdilər.

"Kosa-kosa", "Kəndirbaz", "Sim pəhləvan", "Masqara", "Gözübağlıca", "Cıdır" tamaşaları, qılınc oynatmaq, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq və s. kütləvi əyləncəli milli oyunların bayramla əlaqədar keçirildiyi söylənilir. Sadaladığımız xalq oyunları zaman-zaman yol keçərək bu günümüzədək gəlib çatıb. Novruz bayramında həmçinin güləş yarışları təşkil edilir, meydanlarda yallı oynanılır, kəndirbazlar tamaşalar göstərir, mahnılar oxunur, aşıqlar deyişirlər...

"Novruz" mərasiminin mühüm epizodunu təşkil edən "Kosa-kosa" oyunu əsl teatr örnəyidir. Burada ardıcıl süjet, dramatik hərəkət, həmçinin xüsusi paltar geyinən, maska taxan aktyor olur. Bir neçə gün davam edən toy mərasimlərində ifa olunan "Xan-xan","Mütriblərin rəqsi","Gəlinlə qayınana deyişməsi" və s. epizodlar oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir. Ozan-aşıq məclislərində, "Zorxana" səhnələrində, kəndirbazların çıxışlarında, habelə qədimdə el arasında geniş yayılan "Yuğ" mərasimində də meydan teatrı ünsürləri güclü olub.

"Kosa-gəlin", "Tapdıq çoban", "Tənbəl qardaş" (üçpərdəli komediya) və s. tamaşalar el arasında məşhur olmuşdur. Bu tamaşalarda əsasən kəndin təsərrüfat və məişət həyatı əksini tapmışdır. Nikbinlik onların başlıca xüsusiyyətidir. Həmin tamaşalarda gülüş bəzən ciddiləşərək acı kinayə satiraya çevrilərək adamların əmək, məişət və psixologiyasındakı qüsurları qamçılayırdı.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***





# Ədəbiyyat





● Nurəddin BABAYEV -100

# Görkəmli yazıçı-jurnalist

**Orta nəslin nümayəndələri dövrünün tanınmış yazarı Nurəddin Babayevi, yaxşı xatırlayırlar. Çünki o, ötən əsrin 60-80-ci illərində Azərbaycanda ən çox oxunan yazıçılardan idi. Nurəddin müəllim ədəbi aləmdə həm də gözəl publisist kimi tanınırdı.**



N.Babayev Azərbaycan Yazıçılar İttifaqının üzvü, 1954-cü ildən SSRİ Yazıçılar İttifaqının üzvü, Azərbaycan Jurnalistlər İttifaqının (indi AJB) üzvü və idarə heyətinin katibi olmuş, Əməkdar incəsənət xadimi, Əmək və müharibə veteranı, habelə digər fəxri adlara və yüksək mükafatlara layiq görülmüşdür.

Anadan olmasının 100 illik yubileyini qürur hissi ilə qeyd etdiyimiz Nurəddin Həsən oğlu Babayev 1921-ci il martın 23-də Nizami yurdu qədim Gəncə şəhərində, ziyalı ailəsində anadan olmuşdur. Uşaq yaşlarında ailəsi ilə birlikdə Bakı şəhərinə köçən Nurəddin məktəb illərində mütaliəyə böyük həvəsi, güclü yaddaşı ilə müəllimlərinin və yaşıdlarının diqqətini çəkmişdi. Məktəb divar qəzetinin yazarı, sonra redaktoru kimi ictimai işlərdə fəallıq göstərmiş, məqalə və bədii yazıları ilə seçilmişdir. Ümumiyyətlə, Nurəddin Babayev ədəbi fəaliyyətə 17-18 yaşlarında başlamış, bundan sonra müxtəlif mətbu orqanlarda tez-tez məqalə, oçerk və hekayələri dərc edilmişdir.

N.Babayev 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinin iştirakçısı olub. Elə bu mövzuda "Əbədi qəhrəmanlıq" adlı ilk kitabı 1945-ci ildə çap olunmuşdur. O, Böyük Vətən müharibəsində ön cəbhədə vuruşmuş, ağır yaralanmış və baş leytenant rütbəsi ilə Bakıya qayıtmışdır. Bakıya döndükdən sonra gənc yazar ADU-nun (indi BDU) Filologiya fakültəsinə daxil olmuşdur. Nurəddin Babayevin bu uğuru onun taleyində və ədəbi yaradıcılığında xüsusi rol oynamışdır. Tələbə-gəncin yazıçı kimi formalaşmasında o dövrün məşhur ədib və mütəfəkkirləri olan müəllimlərindən Cəfər Xəndanın, Mir Cəlal Paşayevin, Həmid Araslının, Muxtar Hüseynzadənin, Abbas Zamanovun və başqalarının böyük təsiri olmuşdur.

ADU-nu bitirdikdən sonra elmi-pedaqoji fəaliyyətə başlayan yazıçı 1953-cü ildən Jurnalistika kafedrasında baş müəllim işləmişdir. O, 1958-ci ildə "Azərbaycanda bədii oçerkin inkişafı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi, daha sonra filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. O, Azərbaycan ədəbiyyatında oçerk janrının nəzəri əsaslarını yaratmış və bu yolda novator kimi tanınmışdır. Təsadüfi deyil ki, zəngin elmi-nəzəri biliyə və təcrübəyə malik olan N.Babayev Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsində dəfələrlə mühazirə oxumuşdur.

O dövrdə Azərbaycanda Jurnalistika fakültəsi yox idi, yalnız 1928-ci ildən Filologiya fakültəsinin nəzdində jurnalistika şöbəsi fəaliyyət göstərirdi. Bu da gənc nəsil jurnalistləri üçün müəyyən çətinliklər yaradırdı. Odur ki, 1969-cu ildə tanınmış alim və yazıçılarımızın, o cümlədən Nurəddin Babayevin səyi ilə universitetdə Jurnalistika fakültəsi təşkil olunmuş və bu fakültəyə ilk dekan professor Nurəddin Babayev təyin edilmişdir.

Çox məmnunam ki, bu gün Azərbaycan mətbuatında çalışan yüzlərlə jurnalist kimi, mən də Nurəddin müəllimin tələbəsi olmuşam. O, mühazirə və seminarlarında tələbələrə obyektiv və milli ruhlu yaxşı jurnalist olmağı, dövlətə, xalqa, millətə sədaqətlə xidmət etməyi, jurnalist adına, peşəsinə həmişə böyük hörmət və ehtiramla yanaşmağı tövsiyə edərdi.

İkinci kursu bitirəndə biz, tələbələri yaşadığımız rayonların qəzetlərində istehsalat təcrübəsinə göndərirdilər. Bu zaman təcrübə rəhbəri kimi Nurəddin müəllim necə çalışacağımız, özümüzü necə aparacağımız və yazacağımız mövzularla bağlı tövsiyələrini verirdi. Sonda məni yanına çağırıb dedi:

- Şəmkirdənsən, rayonun kəndlərinə yaxşı bələd olansan, de görüm, Təzəkənd kəndini tanıyırsan? Dedim, bəli, həmin kənddənəm. - Hə, onda davamiyyətinizlə tanış olmaq üçün rayona gələndə həmin kəndə gedəcəyimə bələdçilik edə bilərsən?

- Əlbəttə, çox xoş olar, - dedim. Amma ani olaraq içimdən keçən narahatçılığı hiss edən Nurəddin müəllim sözünə davam edərək dedi ki, eşitmişəm, repressiya qurbanı Əhməd Cavadın yaradıcılığı ilə maraqlanırsan, arxivini əldə eləmisən, çox xeyirxah işin qulpundan yapışmısan... Əhməd Cavadın oğlu Aydın Axundzadə rayon Kooperativlər İttifaqının sizin kənddəki İstehlak Cəmiyyətinin sədridir. Bilirsənmi, onlarla ailəvi dost olmuşuq, Aydın həm də mənim süd qardaşımdır. Onlar Gəncədə və Bakıda yaşayanda bir evli kimi idik. Mənim jurnalistikaya gəlişimə, ədəbi aləmdə yaradıcılığıma dəstək verən şəxslər arasında ailəmizin yaxın dostu Əhməd Cavadın da qayğısı çox olub.

Bu xatırlamada diqqətinizə çatdırmaq istəyirik ki, Nurəddin müəllim tək mənə yox, bütün tələbələrinə ziyalı qayğıkeşliyi ilə yanaşır, haradasa, nədəsə bizlərə dəstək olmağa, kömək göstərməyə çalışırdı.

Müəllimimin səmimi söhbətindən onu da əxz etdim ki, ədəbi aləmə gəlişinin ilk günlərindən Mir Cəlal Paşayev, Aslan Aslanov, Nəsir İmanquliyev, Şıxəli Qurbanov, Bəxtiyar Vahabzadə, Qulu Xəlilov, Famil Mehdi və digər görkəmli ziyalılar Nurəddin Babayevin yaxın dostu və məsləkdaşı olublar.

N.Babayev Azərbaycan jurnalistikası tarixində ilk dərs vəsaiti olan ikicildlik "Jurnalistika məsələləri" kitabının elmi redaktoru və əsas müəlliflərindən biridir. Gələcək üçün böyük elmi xəzinə hesab edilən bu kitaba görə Nurəddin Babayev 1966-cı ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

Nurəddin Babayevin bir sıra əsərləri rus, alman, ingilis, fransız, ispan, polyak, bolqar, macar və s. dillərə tərcümə olunmuşdur. Yazıçının "Biz Azərbaycandanıq" (1965), "Ürəyimdə sözüm var" (1980), "İzləri itirmirik" (1978) kimi kitabları da öz məzmun və dəyəri ilə o dövrün gəncliyinin mənəvi tərbiyəsində böyük rol oynamışdır. Nurəddin Babayevin yaradıcılığı çoxşaxəlidir. Onun oxucu rəğbəti qazanan bir sıra əsərləri, o cümlədən "Bahar övladları" (1959), "Zərif duyğular" (1963), "Manolis Qlezos" (1966), "Qəhrəmanların izi ilə" (1968), "Zvezdı ne qasnut" (Moskva, "Sovetski pisatel", 1969), "Ulduzlar sönmür" (1975), "Ürəyimdə sözüm var" (1980), "Açıq söhbət" (1982), "Na doroqax jizni" (Moskva, "Sovetski pisatel", (1984), "Elə yaz ki..." (1985), "Gəlin kişilikdən danışaq" (1986), "Babam-nənəm, atam-anam və biz" (1988) kitabları müəllifin sağlığında, "Adamın özü və sözü" (1992) əsəri isə vəfatından sonra işıq üzü görmüşdür.

N.Babayev 1943-1945-ci illərdə "Kommunist" qəzeti redaksiyasında şöbə müdiri, "Azərbaycan müəllimi" qəzetində redaktor müavini, 1953-cü ildən isə "Uşaqgəncnəşr"də baş redaktor işləmişdir. Yazıçı, publisist, naşir dəfələrlə müxtəlif elmi, mədəni layihələr və görüşlər ilə əlaqədar Fransa, Kuba, Bolqarıstan, Finlandiya kimi ölkələrdə, həmçinin keçmiş SSRİ respublikalarının hamısında olmuşdur. Yazıçının bu ölkələrdə də bir çox məqalə və əsərləri çap edilmişdir.

Nurəddin Babayevin yaradıcılığı rəngarəngdir. Onun ədəbi yaradıcılığında gənclərin təlim-tərbiyəsinə həsr edilmiş əsərləri xüsusi diqqət çəkir. Görkəmli yazıçının bu əsərləri gənclər üçün stolüstü kitab olmaqla yanaşı, hər zaman tərbiyəvi, əxlaqi nəsihətlərlə zəngin xəzinədir. "Oğluma məktublar" (1966), "Qızlar söz istəyir" (1977), "Qızlar, sözüm sizədir"(1972), "İşıq və məhəbbət" (1977), "Ürəklər bir olanda" (1991) əsərləri buna bariz nümunədir. Təsadüfi deyil ki, yazıçının "Oğluma məktublar" əsəri mükafata layiq görülmüşdür. Hətta bu əsər Bolqarıstanda "Ədəbiyyat" dərsliyinə daxil edilmişdir. Görkəmli yazıçı-jurnalist bir müddət Cəfər Cabbarlı adına Bakı kinostudiyasında baş redaktor işləmişdir. Bu zaman yazıçı xüsusən sənədli-xronikal filmlərin, milli mentalitetə söykənən kinooçerklərin, insanları mənəvi kamilliyə səsləyən kino-jurnalların məzmunlu, yüksək səviyyədə ekranlara buraxılmasında əlindən gələni əsirgəməmişdir. Bununla yanaşı, "Azərbaycan elmi" (1969), "Bacarıqlı əllər" (1963), "Nizami yurdu" (1968), "Həyatın mənası" (1979), "Axtaran tapar" və başqa elmi-sənədli filmlərin ssenari müəllifi olmuşdur.

Azərbaycanda jurnalistika ixtisasının nəzəri əsaslarını yaradan yazıçı-jurnalist Azərbaycan Jurnalistlər İttifaqının (indi AJB), həmçinin Respublika Ədəbiyyat və İncəsənət Arxivinin təşkilində də çox böyük rol oynamış, arxiv xəzinəsinə özünün və qələm yoldaşlarının yaradıcılığı ilə əlaqədar qiymətli materiallar vermişdir. Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivinin direktor müavini Şəlalə Baxşəliyeva bildirir ki, bu arxivdə Nurəddin müəllimin 31 saylı fondu ilk və ən zəngin fondlarındandır. 1944-1969-cu illəri əhatə edən birinci siyahıda ədibin povestləri, hekayələri, çıxışları, rəyləri, fota-sənədləri, 1943-1984-cü illərə aid ikinci siyahıda ədibin əlyazmaları, oçerkləri, ssenariləri, məqalələri, tədqiqatları, haqqında sənədləri və s. toplanıb. Üçüncü siyahıda isə yazıçının 1938-1998-ci illərdə yazılmış müxtəlif janrlı əsərləri, oxucu məktubları, əlyazmaları, bir sözlə, 118 iş qorunub saxlanılır.

Böyük Şərq mütəfəkkiri Əbu Turxan yazır ki, hər insan bir ulduzu xatırladır. Lakin həyatda ulduz olmaq, insanlığa işıq saçmaq hər kəsə nəsib olmur. 1991-ci il sentyabrın 25-də əbədiyyətə qovuşmuş Nurəddin Babayev ötən əsrin 60-80-cı illərində Azərbaycan jurnalistikasında və ədəbi aləmdə ulduz kimi parladı... İllər ötdükcə bu işıq daha parlaq görünür.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Abdulla ŞAİQ - 140

# Tarixin keşməkeşlərindən keçən ömür

**XX əsrin əvvəllərində Bakıda inqilabı hərəkat genişlənməkdəydi. O illərdə bu şəhərdə yalnız siyasi-ictimai iğtişaşlar nəzərə çarpmırdı. Bakı həm də elm, ədəbiyyat və mədəniyyət mərkəzinə çevrilirdi. Azərbaycanın qabaqcıl ziyalıları bura toplaşır, yeni üsulla məktəblər açır, dərsliklər hazırlayır, qəzet və jurnallar çıxarırdılar.**



Abdulla Şaiq belə bir dövrdə Tiflisdən Bakıya köçüb. O, əvvəlcə Tiflisdən tanıdığı Nəriman Nərimanovla görüşüb. Ona bu şəhərə müəllimlik arzusu ilə gəldiyini deyib. Nərimanovdan imtahan verib müəllimlik hüququ qazanmalı olduğunu öyrənib.

1901-ci il aprelin 22-də I Aleksandr adına üçüncü oğlan gimnaziyasında imtahan komissiyası çağırılıb. Abdulla Şaiq yazılı, şifahi və nümunə dərsi üzrə verdiyi imtahanlardan uğurla keçib. 608 nömrəli şəhadətnaməyə əsasən, "Azərbaycan dili müəllimi" adını alıb. Şəhadətnaməni imzalayan komissiya üzvü Nəriman Nərimanov onun müəllim vəzifəsinə düzəlməsində də mühüm rol oynayıb.

Boş yer olmadığı üçün Abdulla Şaiqi rus-tatar məktəblərində "ehtiyat müəllim" təyin ediblər. O, Sultan Məcid Qənizadənin müdir olduğu altı sinifli şəhər məktəbində pedaqoji fəaliyyətə başlayıb. Həmin illərdə xalqı maarifləndirmək, onları zamana uyğun tərbiyə etmək dövrün tələbi idi. Abdulla Şaiq bir pedaqoq kimi bu vəzifənin öhdəsindən layiqincə gəlib.

1901-1906-cı illərdə o, bir neçə məktəbdə dərs deyib. 1902-ci ilin sentyabrında Həbibbəy Mahmudbəyovun müdir olduğu altısinifli şəhər məktəbinin aşağı siniflərinə daimi ana dili müəllimi təyin edilib. Dərs saatı az olduğu üçün 1903-cü ildən Sabunçuda altıillik məktəbdə də dərs deyib. Sabunçuya gedib-gəlmək çətin olduğundan 1906-cı ilin sentyabrında oradan ayrılıb, Bakı realnı və yeddinci şəhər məktəbinə işə düzəlib. Rus dilində tərcümeyi-halında 1906-cı ildə 7-ci rus-tatar məktəbində dərs deməyə başladığını bildirib. Bu məktəbdə onun şagirdləri arasında Seyid Hüseyn, Cəfər Cabbarlı da vardı. Burada 1908-ci ilədək çalışıb. Həmin ildən pedaqoji fəaliyyətini Bakıdakı realnı məktəbində davam etdirib. Abdulla Şaiq burada şəhərin bir neçə məktəbində altıncı dərs kimi tədris edilən Azərbaycan dilindən dərs verib. Mütərəqqi fikirləri Abdulla Şaiqə şagirdləri və qabaqcıl fikirli maarif işçiləri arasında böyük hörmət qazandırıb.

XX əsrin əvvəllərində Bakıda müxtəlif maarif cəmiyyətləri yaradılıb. Onların arasında fəaliyyəti ilə diqqəti cəlb edən "Nicat" cəmiyyətinin sədr müavini Nəriman Nərimanovun və həmfikirləri - Həsən bəy Zərdabi, Fərəc bəy Ağayev, Süleyman Sani Axundov, Abdulla Şaiq, Üzeyir Hacıbəyli və başqalarının səyi nəticəsində 1906-cı ilin avqustunda Azərbaycan müəllimlərinin I qurultayı keçirilib. Qurultayın təşkilində Abdulla Şaiqin böyük xidmətləri olub. O, qurultayda çıxış edərək ana dili və ədəbiyyatın tədrisi, yeni dərsliklər yaratmaq haqqında fikirlərini bildirib. Burada Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Abdulla Şaiq və digərlərindən ibarət xüsusi komissiya yaradılıb. Onlara Azərbaycan dilində müvafiq proqram hazırlamaq tapşırılıb.

Qurultaydan sonra yeni dərsliklər yazılıb. "Əlifba", "Uşaq çeşməyi", "İkinci il" və başqa dərsliklərdə Abdulla Şaiqin öz əsərləri, eləcə də Azərbaycan və dünya ədəbiyyatından nümunələr verilib. Sonrakı illərdə o, bir-birinin ardınca "Milli qiraət", "Müntəxabat", "Türk çələngi", "Ədəbiyyat", "Türk ədəbiyyatı", "Gülşəni ədəbiyyat" adlı dərsliklər və proqramlar hazırlayıb.

Abdulla Şaiq bədii yaradıcılığa qəzəl və tərcümə ilə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeri olub. 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə Azərbaycan milli uşaq poeziyasını zənginləşdirib. Şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında dərc olunub.

O, xalq ədəbiyyatını toplayıb araşdırıb. "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağılları, "Ədhəm", "Tapdıq dədə", "Qoçpolad" poemalarında folklorun təsiri əksini tapıb. 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə Abdulla Şaiq milli uşaq teatrının bünövrəsini qoyub.

Nəsr yaradıcılığına 1905-ci ildə romantik "İki müztərib və ya əzab və vicdan" yarımçıq romanı ilə başlayıb. Sonralar "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı, yaşamaqmı", "Göbələk", "İblisin huzurunda", "Dursun", "Əsrimizin qəhrəmanları" kimi bir sıra hekayə, povest və romanlar qələmə alıb.

Dövrün inqilabi çağırışlarına, ictimai-siyasi hadisələrə heç vaxt biganə qalmayıb. O, "Hürriyyət pərisinə", "Niyə uçdu", "Bir quş", "XX əsrə xitab", "Şikayətlərim", "Zamanın inqilabçılarına" kimi inqilab ruhlu şeirlərin müəllifidir.

Abdulla Şaiq 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılayıb. Cümhuriyyət dövründə maarif və məktəb məsələlərində fəal iştirak edib. 1920-ci il aprelin 28-də Azərbaycanda bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra da Abdulla Şaiq xalqın gələcəyi naminə çalışıb. Pedaqoji kurslarda, texnikumlarda və başqa məktəblərdə dərs deyib, mədəni-maarif işlərini və bədii yaradıcılığını davam etdirib. 1923-cü ildə ədəbi-pedaqoji fəaliyyətinin 20 illiyi təntənə ilə qeyd olunub. İşlədiyi gimnaziya "Şaiq nümunə məktəbi" adlandırılıb.

Abdulla Şaiq çoxşaxəli fəaliyyət göstərib. Hansı sahə ilə məşğul olubsa, sevgi dolu qəlbi yorulmaq bilmədən çalışıb. O, ömrünün 34 ilini Azərbaycan maarifinin inkişafına həsr edib. Yazıçı, şair, alim, ədəbiyyatşünas, folklorçu kimi də tanınıb. "Vəzifə", "Özü bilsin, mənə nə?", "Anabacı", "Əsəbi adam" kimi silsilə hekayələri, "Araz" inqilabi-tarixi mövzulu romanı, elm, maarif və mədəniyyət haqqında məqalələri ədəbi mühitdə maraqla qarşılanıb. "Tənqid-Təbliğ" teatrı üçün əsərlər yazıb. Azərbaycan Gənc Tamaşaçılar Teatrının, Uşaq və Gənclər nəşriyyatının işi onun adı ilə bağlıdır. Uzun müddət bu teatrda çalışan ədib "Xasay", "Eloğlu", "Vətən", "Fitnə", "Qaraca qız" kimi pyeslər qələmə alıb.

Onun klassik ədəbiyyat, Şərq ədəbiyyatı məsələləri, sufizm, təsəvvüf, hürufilik, həmçinin müxtəlif ədəbi cərəyən və metod haqqında maraqlı araşdırmaları var. Azərbaycan ədəbiyyatını tədqiq və təbliğ edib, Abdulla Şaiq milli folklorumuzu ilk dəfə toplayıb öyrənənlərdən biri olub. Çağdaş həyata, elm və dil məsələlərinə aid yazıların müəllifidir.

Abdulla Şaiq 1959-cu il iyunun 24-də 78 yaşında vəfat edib. O, xatirələrdə xeyirxah, alicənab, istedadlı, zəhmətsevər insan kimi qalıb. Bənzərsiz müəllim, ədib, alim Abdulla Şaiq pedaqoji, bədii, elmi yaradıcılığı ilə Azərbaycan tarixində layiqli yer tutub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Beynəlxalq Poeziya Günü

# İncə sənət, həyat, ovqat, təravətli söz

**Poeziya milliliyi ilə yanaşı, həm də bəşəri mahiyyət daşıyır. Hər bir xalqın poeziyasının özünəməxsusluğu var. Türkiyənin tanınmış mədəniyyət xadimi - şair, dramaturq, rejissor və tərcüməçi Tarik Günersel Beynəlxalq Poeziya Gününün qeyd olunmasını 1997-ci ildə təklif kimi irəli sürüb. Bu təklif istər sənət aləmində, istərsə də xalqlar arasında ehtiramla qaşılanıb. 1999-cu ildə UNESCO-nun 30-cu iclasında 21 mart "Beynəlxalq Poeziya Günü" elan olunub.**



Bu hadisə xalqımız üçün ikiqat bayrama çevrildi. Çünki ruhun musiqisi adlandırılan bəşəri poeziyanın ritmik notları ilə baharı, çiçəklənməyə hazırlaşan ecazkar təbiəti, saflıq və birlik rəmzi olan Novruzu salamlamaq doğrudan da əsl səadətdir. Səadətdir həm də ona görə ki, Odlar Yurdu - maddi sərvəti ilə zəngin olan Azərbaycan həm də mənəvi sərvəti ilə əsrlərdən bəri də məşhurdur. Xalqımız şeiriyyətə və mədəniyyətə misilsiz töhfələr, nadir söz ustadları, böyük sənətkarlar bəxş edib. Azərbaycanın ürəyi həmişə şeirlə, poeziya ilə döyünüb.

## Poeziya - sözün poetik imkanlarının ifadəsi

Poeziya ən qədim zamanlardan insanın mənəvi ehtiyacına çevrilmiş, arzu və istəklərinin, duyğu və düşüncələrinin, sevinc və kədərinin poetik tərcümanı olub. Bəşəriyyətin söz xəzinəsini zənginləşdirən Azərbaycan poeziyası da xalqımızın tarixi qədər qədimdir.

Azərbaycan şairləri bütövlükdə Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatının inkişafına güclü təsir göstərib, özünəməxsus poeziya məktəbi yaradıb. Bu məktəbin nümayəndələrinin yaradıcılığında yüksək peşəkarlıq, sözün poetik imkanlarından istifadə bacarığı özünü daha aydın göstərib.

Azərbaycanda poeziyanın ilk nümunələri şifahi xalq ədəbiyyatı əsasında formalaşmış bayatılar, holavarlar, sayaçı sözləri və digər mövsüm-mərasim nəğmələridir. Heç də təsadüfi deyil ki, bizi şair xalq adlandıran əcnəbilər ana dilimizin musiqili olmasını dönə-dönə söyləmişlər.

Orta əsrlərdən başlayan mədəni inkişaf prosesi Azərbaycan poeziyasının yüksəlişində yeni bir mərhələnin başlanmasına gətirib çıxarıb, insana, onun daxili aləminə maraq güclənib. Şeir sənətimiz Həsənoğlunun, N.Gəncəvinin, M.Füzulinin, İ.Nəsiminin... timsalında yeni çalarlarla zənginləşib. XIX əsrdən başlayaraq şeirlərdəki fəlsəfi mühakimələrin yerini müasirlik və real obrazların lirik təzahürü tutub. M.P. Vaqifin, M.V.Vidadinin, Q.Zakirin, S.Ə.Şirvaninin, M.Ə Sabirin və başqalarının yaradıcılığı isə maarifçi-realist ruhda formalaşıb.

Əlbəttə, poetik fikrimizin M.Ə.Sabir, H.Cavid, M.Hadi, Ə.Cavad, S.Vurğun, M. Müşfiq, M.Araz, B.Vahabzadə, X.Rza kimi görkəmli nümayəndələri öz yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatına yeni ruh verib, bir-birindən dəyərli poetik nümunələri ilə xalqımızın Azərbaycançılıq məfkurəsi, milli dəyərlər ətrafında birləşməsində layiqli xidmət göstəriblər.

## Vətənçilik məfkurəsi, azərbaycançılıq ideyası...

Söz və fikir azadlığının, siyasi düşüncə sərbəstliyinin, plüralizm, milli istiqlal, ictimai ədalət uğrunda, xalqımızın istiqlal mübarizəsində, dövlət müstəqilliyinin bərpasında əhəmiyyətli rol oynamasını inkar etmək olarmı?! Bu, əslində, şair və yazıçılarımızın yaradıcılığından daim qırmızı xətlə keçən vətənçilik məfkurəsinin, azərbaycançılıq ideyasının, vətənpərvərlik ruhunun məntiqi nəticəsi idi.

1975-ci ilin oktyabrında keçirilən "Azərbaycan Ədəbiyyatı Günləri"ndə çıxış edən Ümummilli Lider Heydər Əliyev şeiriyyətin cəmiyyətdə böyük dəyərə malik olduğunu belə ifadə edib: "Tarix tələbkar imtahançıdır. Hökmdarlar, saray əyanları unudulub getmişlər. Azərbaycanın böyük mütəfəkkir və humanist şairlərinin təravətdən düşməyən misraları isə bu gün də öz hikməti və insanpərvərlik ruhu ilə dünyanı heyran qoyur... Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza, birinci növbədə, ədəbiyyatdan gəlir. Bununla Ümummilli Lider müasir ədəbi prosesin inkişafı üçün hər cür şəraitin yaradılmasını vacib hesab edirdi.

Bu gün Azərbaycan dövlətinin, eləcə də Heydər Əliyev Fondunun hərtərəfli qayğısı sayəsində ədiblərimizin bədii yaradıcılıqları geniş üfüqlərə şəfəq saçır. Poeziya ilə nəfəs paylayan şairlərin ümumbəşəri mahiyyət daşıyan çoxşaxəli yaradıcılıqları dünya bədii təfəkkürünü zənginləşdirir, milli şeiriyyəti yüksəklərə qaldırır. Şairlərimizin bədii fikir salnaməsində parlaq səhifələr açan əsərləri insanların mənəvi kamilləşməsinə xidmət göstərir. Bu, həm də ədəbiyyatın ən ali vəzifəsi kimi xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin ədəbiyyatımızın inkişafına, ədiblərin yaradıcılıq uğurlarının daha da artmasına xüsusi diqqət və qayğı göstərməsi də təsadüfi deyil. Dövlət başçısının son 17 il ərzində müxtəlif vaxtlarda Nizami Gəncəvinin 880, Aşıq Ələsgərin 200, Cəlil Məmmədquluzadənin 140 və 150, Hüseyn Cavidin 130, Məmməd Səid Ordubadinin 140, Mirzə Fətəli Axundzadənin 200, Mirzə Ələkbər Sabirin 150, Mirvarid Dilbazinin 100 illik yubileylərinin beynəlxalq və ölkə səviyyəsində qeyd olunması üçün imzaladığı sərəncamlar, ondan irəli gələn tədbirlərin həyata keçirilməsi Azərbaycan ədəbiyyatının inkişafına hesablanan mədəniyyət siyasətinin tərkib hissəsidir.

## Poetik dünyası olanların qəribə, həm də qərib aləmləri olur...

Sözün keşiyində elə söz silahı ilə əsgər və sərkərdə kimi dayanan Nizami Gəncəvinin və eşq şairi Məhəmməd Füzulinin əsərlərində sözün qüdrəti ilahi varlıq qədər ucalıqda saxlanılır. Nizami Gəncəvinin "Az danışmağın gözəlliyi"ndə deyilir:

*Sözün də su kimi lətafəti var,*
*Hər sözü az demək daha xoş olar...*

Məhəmməd Füzulinin "Söz" qəzəlinin açmasında isə nəzmə çəkilmiş fikrin mənası dəryalar qədər dərindir: "İnsanın sirrini hər kəsə açan sözdür, hər an yoxdan var olan söz. Sözün qiymətini bilən, ona dəyər verən insan özünə dəyər vermiş olur. Söz hansı dəyərdə olsa, sahibini də o dəyərdə edər. İnsana onun danışdığı sözə görə qiymət verilir. Mənalı söz könüllər alan gözəl kimidir, o da hərdən örtüyünü açıb üzünü göstərər və könülləri şad edər. Söz sirlər xəzinəsinin xəzinədarıdır, qoruyucusudur.

Poeziya da məhz sözün cilalanmış, incələnmiş, dürr halına salınmış ifadəsidir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

● Yeni nəşrlər

# Xalq bayramları və Novruza elmi-nəzəri baxış

**Bayramların hər bir xalqın həyatında özünəməxsus, əvəzolunmaz yeri var. Bu bayramlar milli adət-ənənələri özündə əks etdirməklə, əslində, xalqın varlığının, kimliyinin qorunub yaşandığı, nəsillərdən-nəsillərə ötürüldüyü mənəviyyat xəzinəsi rolunu oynayırlar.**

İdeologiyalar, ictimai quruluşlar, siyasi baxışlar dəyişir, lakin bayramlar öz xəlqi mahiyyətini saxlamaqla, milli kimliyin simvollarını özündə qoruyurlar. Bunun ən bariz nümunəsi Novruz bayramıdır. Novruz kökü minilliklərin dərinliklərinə gedib çıxan bayramlar kompleksidir.




AMEA Folklor İnstitutunun Mifologiya şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Albalıyevin "Təknur" nəşriyyatında çapdan buraxılan "Xalq bayramları probleminin nəzəri əsasları və Novruz" kitabında "bayram" anlayışının semantik strukturu, onların təsnifatı, etnokulturoloji baxışlar, Novruzun etnokulturoloji düşüncə sistemi kimi formalaşmasında mifik inancların rolu, mərasim və simvolika və s. məsələlərdən bəhs edilir.

AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarına əsasən, nəşr edilmiş kitabda maraqlı məqamlar kifayət qədərdir. İnamlar və inancların xalq bayramları ilə bilavasitə əlaqəsi oxucuda daha çox maraq doğura bilir: "İnsanı yaşadan ümiddirsə, ümidləri də sönməyə qoymayan inamlardır. Bu aspektdən yanaşdıqda, inanclar sisteminin də insanın fikir-düşüncəsi ilə bərabər formalaşıb yarandığı şübhəsizdir".

Kitabın redaktoru filologiya elmləri doktoru Seyfəddin Rzasoydur. Yeni nəşr həm mütəxəssislər, həm də geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

*"Azərbaycan"*










# Ermənistanda dövlət idarəçiliyi sistemi çöküb

## Bu dəfə məhkəmə Paşinyana qarşı çıxdı

*Əvvəli 1-ci səh.*

Hadisələrin inkişaf istiqaməti bu nəticəyə gəlməyə əsas verir ki, ölkə hazırda sosial partlayış ərəfəsindədir. İlk növbədə ona görə ki, əhalinin maddi gəlirləri aşağı düşdüyü bir vaxtda inflyasiyanın səviyyəsi artır, kommunal xidmətlərə görə insanlardan daha böyük həcmdə vəsait tələb olunur. Vəziyyətdən yeganə çıxış yolu kimi Ermənistan əhalisi ölkədən birdəfəlik miqrasiya edərək yaşamaq üçün başqa ölkələrə üz tutur.

Hətta xarici partnyorlar da Ermənistandan üz döndərirlər. Məsələn, elə "4rd.am" saytının yazdığına görə, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunun həcmi 10 faizdən çox azalıb. Ermənistan iqtisadiyyatına xarici sərmayə qoyuluşunun kəskin şəkildə azalmasına səbəb bir tərəfdən əcnəbi investorlarda bu ölkənin iqtisadi inkişafına, gələcəyinə inamsızlıq yaranmasıdırsa, digər tərəfdən korrupsiyaya qurşanmış dövlət məmurları tərəfindən onlara göstərilən müxtəlif təzyiqlərdir. Eyni zamanda ölkədə xarici investisiya üçün münbit şəraitin yaradılmaması, sərmayədarların hüquqlarının dövlət tərəfindən qorunmaması da öz rolunu oynayır.

Yerevanda hökumət binasının qarşısında keçirilən növbəti mitinqdə Paşinyan hökumətinin sosial-iqtisadi siyasəti kəskin tənqid olunub. Mitinqdən sonra aksiya iştirakçılarından bir qrupu Azadlıq meydanına yürüş ediblər. Bu şəraitdə qarşıdurmanın davam etməsi qaçılmaz sayılır.

Ermənistan Gənclər Birliyinin mərkəzi idarə heyətinin üzvü Kristine Vardanyan bildirib ki, Nikol Paşinyan xalqı susdurmaq üçün polis rejimi yaradıb. Bunun üçün hər gün dövlətdən milyonlarla vəsait xərclənir. Onun sözlərinə görə, demokratiyadan dəm vuran Nikol indi hakimiyyəti xunta rejiminə çevirib: "Bu ölkədə fərqli nəcib fikirlərdən, demokratiyadan danışan insana baxın, necə hərəkət edir. Vergilərinizin hara getdiyini öyrənin, ay camaat! Nikol Paşinyan bu gün vətəndaşlarla görüşməkdən yayınır. Yüzdən çox polisin müşayiəti ilə hökumətdən nazirliyə hərəkət edir, gücü bu polislərdən alır, xalqdan yox. Xalqın dəstəyi yoxdur, komandasının dəstəyi belə yoxdur, sadəcə kreslosundan yapışıb qalıb, hakimiyyətdə qalması gün məsələsidir. Onun gündəlik fəaliyyətləri ölkəmizi və dövlətçiliyimizi məhv etməyə aparır".

Nikol Paşinyan başda olmaqla ölkə iqtidarında təmsil olunanlar daha çox şəxsi mənafelərini güddüklərindən hakimiyyətə daxildə hansısa təhlükənin yaranmasını əngəlləmək üçün əcnəbi ağaların himayəsinin Ermənistan üzərindən çəkilməsindən qətiyyən maraqlı deyillər. Bu, "İravunk" qəzetində dərc olunan məqalədə də öz əksini tapıb. Bildirilib ki, Ermənistanın xarici siyasətində vassalçılıq prinsipi üstünlük təşkil edir. Hakimiyyət resursları və milli maraqları hesabına xarici güclərin dəstəyi üçün zəmanət qazanmağa çalışır: "Öz hakimiyyəti üçün xarici himayənin axtarışında olan hazırkı iqtidar Ermənistanı beynəlxalq səhnədə təcrid vəziyyətinə salıb. Dost və müttəfiq ölkələrlə effektiv münasibətlərin inkişaf etdirilməsi üçün heç bir səy göstərilməyib".

Bu durumda ölkə daha çox xarici dövlətlərdən asılı vəziyyətə düşür. Nə qədər ki qonşu dövlətlərlə normal və sivil münasibətlər qurmur, Ermənistanı bundan sonra da böyük problemlər gözləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İşğaldan azad edilmiş ərazilərdə indiyədək 9584 mina, 7081 partlamamış hərbi sursat zərərsizləşdirilib

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) həyata keçirdiyi mina və partlamamış hərbi sursatın təmizlənməsi əməliyyatı barədə məlumat yayıb.**

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, agentliyin mina və partlamamış hərbi sursatın təmizlənməsi əməliyyatları Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Tərtər rayonlarında və Şuşa şəhərində aparılır. Bərdə-Ağdam, Füzuli (Horadiz)-Zəngilan (Ağbənd) dəmir-yolu xətləri, Füzuli-Şuşa, Suqovuşan-Talış-Tapqaraqoyunlu istiqamətində avtomobil yollarının, Füzuli-Şuşa, Ağdam və Tərtər rayonunun Suqovuşan kəndinə çəkiləcək yüksək gərginlikli elektrik xəttinin keçəcəyi ərazilərin, Ağdam, Qubadlı və Zəngilan rayonları ərazisində əkin sahələrinin mina və partlamamış hərbi sursatdan təmizlənməsi əməliyyatları davam edir.

Mina və partlamamış hərbi sursatın təmizlənməsi əməliyyatları əllə minaaxtarma, mexaniki minatəmizləmə maşınlarının və minaaxtaran itlərin dəstəyi ilə həyata keçirilir.

Ötən il sentyabrın 27-dən etibarən aparılmış minatəmizləmə əməliyyatları zamanı 16 milyon 586 min 32 kvadratmetr ərazi yoxlanılıb, piyada və tank əleyhinə 9584 mina, 7081 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Agentlik bir daha bildirir ki, işğaldan azad edilmiş ərazilər minalarla, partlamamış hərbi sursatlarla, tərkibində partlayıcı olan qurğularla və müharibənin partlayıcı qalıqları ilə çirklənmiş ərazilərdir və təhlükəsizlik səbəbindən həmin ərazilərə xüsusi icazə olmadan vətəndaşların girişi qadağandır.

Günay Bank

Azərbaycan xalqını

Novruz bayramı

münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır!







“Bakı Abadlıq Xidməti” MMC

Azərbaycan xalqını

Novruz bayramı

münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq, birlik, firavan həyat, ruzi-bərəkət və xoş gələcək arzulayır!







Təkrar

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə fərdi evlərin tikintisi işlərinin satın alınması respublikanın 36 şəhər və rayonunda (Ağcabədi, Beyləqan, Tərtər, Ağdaş, Ağsu, Ucar, Zərdab, Qobustan, Ağstafa, Samux, Şəmkir, Tovuz, Yevlax, Zaqatala, Qax, Qazax, Qəbələ, Daşkəsən, İsmayıllı, Astara, Lerik, Masallı, Balakən, Saatlı, Biləsuvar, Neftçala, Yardımlı, İmişli, Goranboy, Kürdəmir, Oğuz, Quba, Salyan, Şəki, Xızı, Səbirabad) cəmi 450 ədəd olmaqla fərdi evlərin tikintisi işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 ((012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). 01 mart 2021-ci il;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu və ya 2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). 01 mart 2021-ci il;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **19 aprel 2021-ci il saat 18:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **27 aprel 2021-ci il saat 18:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **28 aprel 2021-ci il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə zəruri olan aktivlərin (inventarların, maşın və avadanlıqların) satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Telefon: (012) 497 71 34) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Kapital Bank ASC 28 May filialı**
**KOD: 200123**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT: AIIBAZ2X**
**H/HESABI: AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir* ***(01.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(01.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığının, təcrübəsinin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **30 aprel 2021-ci il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **11 may 2021-ci il saat 15:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 may 2021-ci il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərişıq" ASC bayram günlərində fəaliyyətini davam etdirəcək

**"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, "Azərişıq" ASC bayramla əlaqədar qeyri-iş günlərində də gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirəcək.**

Səhmdar Cəmiyyətin Mərkəzi Aparatında, Regional Enerji Təchizatı və Satışı idarələrində, şəhər və rayon Elektrik Şəbəkələrində növbətçilik rejimi tətbiq edilərək, qəza xidməti və 199 Çağrı Mərkəzi 24 saat istehlakçıların xidmətindədir. Bayram və qeyri-iş günlərində istehlakçıların dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatının təmin olunması məqsədilə bütün təşkilati və texniki tədbirlər görülüb. İstehlakçılardan xahiş edirik ki, yarana biləcək hər hansı problemlə əlaqədar "Azərişıq" ASC-nin 24 saat fasiləsiz fəaliyyət göstərən 199 saylı Çağrı Mərkəzinə müraciət etsinlər.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 23 fevral 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında, 24 fevral 2021-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində anbar sahəsinin icarəsinin satın alınmasına dair keçirilən açıq tenderdə iştirakçıların sayı 3-dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-4.2-ci maddəsinə əsasən, Tender komissiyasının qərarı ilə tenderin davamından imtina edilir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Ağcabədidən Ədalət Qarabağlı və Hafiz Hüseynov "Respublika" qəzetinin baş redaktoru, professor
**TEYMUR ƏHMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5247
Sifariş 509
Qiyməti 40 qəpik